# Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin icra vəziyyəti




* Əsas icraçı qurumların performansı müəyyənləşdirilərkən, hər bir qurumun əsas icraçı olduğu tədbirlərdən icra edilmiş tədbirlər «1» bal, icrasına başlanılmış tədbirlər «0.5» bal, icrasına başlanılmamış tədbirlər «0» bal ilə qiymətləndirilməklə əldə edilmiş toplam nəticə həmin qurumların əsas icraçı olduqları tədbirlərin ümumi sayına bölünmüşdür. Belə ki, əsas icraçı qurumların performansı qiymətləndirilərkən, məsul olduqları tədbirlərin «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»ndəki tədbirlərdəki xüsusi çəkisi nəzərə alınmamışdır.

** Aidiyyəti qurumların məsul olduqları tədbirlərin sayı 2017-ci ildən icrasına başlanılan tədbirləri özündə ehtiva edir.




*** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya

# Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin icra vəziyyəti

**62%** - **2017-ci ilin ilk altı ayı üzrə irəliləyiş**

<50% 50%–90% >90%

| Prioritetlərin icra vəziyyəti* | | Əsas icra göstəriciləri** “outcome” *(2025-ci il üzrə)* | Təsir *** “impact” |
|---|---|---|---|
| Neft gəlirlərinin dövlət büdcəsinə köçürülməsini tənzimləyəcək “qızıl qayda”nın qəbul edilməsi | 50% | Qeyri-neft sektoruna yönəldilmiş birbaşa xarici investisiyaların qeyri-neft ÜDM-dəki payının hazırkı 2,627 faizlik göstəricidən 2025-ci ilə qədər 4 faizə çatdırılması | 2025-ci ilə qədər ÜDM-də 3 faizdən çox orta illik real artım |
| Xərc/investisiya intizamının təminatı üçün mexanizmin yaradılması | 50% | Qeyri-neft sektoru üzrə ixracın 2015-ci ildəki adambaşına 170 ABŞ dollarından 2025-ci ildə ən azı 450 ABŞ dollarına qaldırılması | 2025-ci ilə qədər 450 mindən çox yeni iş yerinin yaradılması |
| Yeni iqtisadi modeldə effektiv pul siyasəti rejiminin tətbiq edilməsi | 80% | Ticari mal və xidmətlər sektorunda, məsələn istehsal və ya turizm sektorlarında 2025-ci ilə qədər 150 min əlavə iş yerinin yaradılması | |
| İqtisadiyyatda dövlət sektorunun rolunun səmərəliliyinin artırılmasına dair ümumi yanaşmanın koordinasiya edilməsi | 83% | Dövlət büdcəsinin ARDNF-in transfertlərindən asılılığının azaldılması | |
| Özəlləşdirmə gündəliyinin uğurla icrası və prioritet sektorlarda özəlləşdirmənin həyata keçirilməsi | 50% | | |
| Özəlləşdirmə və birbaşa xarici investisiya üçün uyğun investorların cəlb olunması | 50% | | |
| Təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi | 79% | | |
| Əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının inkişafının stimullaşdırılması | 38% | | |
| Əlverişli biznes mühitinin yaradılmasında hökumətin aparıcı rolunun daha da gücləndirilməsi | 50% | | |
| Təşviqedici mühitin yaxşılaşdırılması vasitəsilə biznesin davamlılığının möhkəmləndirilməsi | 50% | | |

** Prioritetlərin icra vəziyyəti 2017-ci ilin ilk altı ayında icra edilmiş və ya icrasına başlanılmış tədbirləri özündə ehtiva edir.*
*** Əsas icra göstəriciləri üzrə qiymətləndirmə illik əsasda aparılır və 2017-ci ilin yekununda qiymətləndiriləcəkdir.*
**** Təsir indikatoru üzrə qiymətləndirmə 2025-ci ildə aparılacaqdır.*

# YARIMİLLİK MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ HESABATI

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi *

## Görülmüş işlər barədə qısa məlumat:

2017-ci ilin ilk altı ayı ərzində "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə müəyyən edilmiş tədbirlərin **32 faizinin** icrası tamamlanmış, **59 faizinin** icrası üzrə işlərə başlanılmışdır.

Fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi məqsədilə büdcə qaydalarının parametrləri beynəlxalq təcrübə nəzərə alınmaqla müəyyənləşdirilmiş və razılaşdırılmış, büdcə qaydaları tətbiq olunacağı təqdirdə dövlət və icmal büdcə göstəricilərinə təsiri və yarana biləcək risklər təhlil edilmiş, habelə proqnoz göstəriciləri hazırlanmışdır. Avropa İttifaqı və Dünya Bankı tərəfindən təqdim olunan hesabatlar nəzərə alınmaqla, Ortamüddətli Xərclər Çərçivəsinin və nəticəəsaslı büdcə mexanizmlərinin yaradılmasına dair təkliflər hazırlanmışdır. Makroiqtisadi koordinasiya təmin edilmiş, məzənnə rejiminin çevikliyi artırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə "Ortamüddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahısı" və "Ortamüddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin restrukturizasiyası həyata keçirilməklə onların tabeliyindən çıxarılaraq özəlləşdirilməsi nəzərdə tutulan qeyri-profil müəssisə və obyektlərin siyahısı" təsdiq edilmişdir.

2017-ci ilin ilk yarımili ərzində kiçik dövlət müəssisə və obyektlərinin, qeyri-yaşayış sahələrinin özəlləşdirilməsi ilə bağlı hazırlanmış 39 sərəncama əsasən 442 müəssisə və obyektin özəlləşdirilməsi ilə əlaqədar qərar qəbul edilmişdir. 2017-ci il ərzində hərracı baş tutmuş 395 kiçik dövlət müəssisə və obyektinin 221-i, icarəyə verilmiş 246 qeyri-yaşayış sahəsinin 89-u, ümumilikdə isə 310 müəssisə və obyekt satılmışdır.

"Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası", "Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə Qaydaları və Standartları" və "Dövlət müəssisələrinin idarəetmə orqanlarının üzvlərinə onların fəaliyyətinin nəticələrinə əsaslanan ödəniş sistemi ilə ("Performance Based Remuneration System") bonus ödənişlərinin verilməsi qaydası" barədə qərar layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

"Daşkəsən Filizsaflaşdırma" ASC-nin dövlətə məxsus səhmlərinin özəlləşdirilməsi prosesinə məsləhətçi şirkət cəlb edilmişdir. Müəssisənin özəlləşdirilməsinə maraq göstərən yerli və xarici şirkətlərlə danışıqlar aparılmış, müəssisə ilə bağlı onları maraqlandıran suallar cavablandırılmış, zəruri məlumatlar verilmişdir.

Özəlləşdirmə prosesinə yerli və xarici investorların cəlb edilməsi məqsədilə potensial investorlara dair mövcud məlumat bazası genişləndirilmiş, bu şirkətlərin fəaliyyət profili, rəhbər şəxsləri, rekvizitləri və bir sıra digər məlumatlar dəqiqləşdirilmiş, yeni məlumatlar əlavə olunmuşdur.

Özəlləşdirmə prosesinə investorların daha fəal cəlb edilməsi sahəsində əməkdaşlıqla bağlı Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə əməkdaşlıq haqqında memorandumun imzalanması təmin edilmiş, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə yaxın əməkdaşlıq qurulmuş, yerli və xarici biznes forumlarda özəlləşdirmə layihələri təqdim edilmişdir.

Ölkədə insan kapitalının inkişafı məqsədilə təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi istiqamətində görülən tədbirlər çərçivəsində məktəbəhazırlıq qrupları təşkil edilmiş, təhsilalanlar və müəllimlər üçün tədris vəsaitləri hazırlanmış, müəllim və rəhbər heyət üçün ixtisasartırma imkanları təmin edilmişdir. Ümumi təhsilin keyfiyyətini yüksəltmək, şagirdlərə seçdikləri ixtisas istiqamətləri üzrə daha yüksək səriştələrə yiyələnmək imkanı yaratmaq məqsədilə ötən tədris ilində tam orta təhsil səviyyəsində təmayüllər üzrə təhsilin əhatə dairəsi genişləndirilmişdir. Bundan əlavə, təhsil müəssisələrinin fiziki və texnoloji infrastrukturunun təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülmüşdür. İlk peşə-ixtisas təhsili müəssisələrində mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə Təhsil Nazirliyinin tabeliyində olan 109 peşə təhsili müəssisəsinin (cəzaçəkmə müəssisələrində yerləşən və fəaliyyəti dayandırılan 14 müəssisəni çıxmaqla) 90 faizinə, yəni 86 müəssisəyə baxış keçirilmiş, Azərbaycan Respublikasında ilk peşə-ixtisas təhsilinin dövlət standartları layihəsi, eləcə də əmək bazarının tələblərinə uyğun orta ixtisas təhsili pilləsinin yeni dövlət standartlarının layihəsi hazırlanmışdır.

2016-cı il və 2017-ci ilin birinci yarımili ərzində 158 sahibkarlıq subyektinə (141 hüquqi şəxs, 17 fərdi sahibkar) 169 investisiya təşviqi sənədi təqdim olunmuşdur.

Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı Komissiyanın müvafiq işçi qrupu tərəfindən Rəqabət Məcəlləsinin yeni layihəsi hazırlanaraq, Komissiyaya təqdim edilmişdir.

Bundan əlavə, Komissiya tərəfindən müəyyən edilmiş iqtisadi və biznes profilli 5 beynəlxalq reytinqdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində yaradılan işçi qruplarla mütəmadi görüşlər keçirilmiş, təklif və layihələr müəyyənləşdirilərək, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Tədbirlər Planı təsdiq edilmişdir.

Bununla yanaşı, “Doing Business” hesabatına daxil olan 8 indikator üzrə qanunvericiliyə dəyişikliklər edilmiş, reytinqdə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması ilə bağlı zəruri tədbirlər görülmüşdür

Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına əsasən, dövlət xidmətlərinin “ASAN xidmət indeksi” üzrə qiymətləndirilməsi istiqamətində işlər görülmüşdür. “Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2018-2025-ci illər üzrə Dövlət Proqramı”nın layihəsi, “Standartlaşdırma haqqında” yeni qanun layihəsi, eləcə də istehlak bazarında qeyri-qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi ilə bağlı normativ hüquqi akt layihələri hazırlanaraq aidiyyəti qurumlara göndərilmişdir.

## Əsas problemlər:

**1. Xarici investisiyaların cəlbi istiqamətində kifayət qədər sistemli iş aparılmamışdır. Belə ki, mövcud iqtisadi şərtlər çərçivəsində qanunvericiliyin təhlil edilməsi və xarici investorların maraqlarının daha yaxşı nəzərə alınması ilə bağlı dəyişikliklərin layihəsi hazırlanmamışdır.**

**2. Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı bir sıra qanunvericilik layihələrinə dəyişiklik edilsə də, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı”nda (bundan sonra – Tədbirlər Planı) nəzərdə tutulmuş bütün istiqamətlər üzrə islahat tədbirləri başa çatdırılmamışdır.**

## Tövsiyələr:

*1. İnvestisiya məsələləri ilə bağlı ətraflı təhlillər aparıla, dövlət-özəl tərəfdaşlığının daha da inkişaf etdirilməsi, infrastruktur sahələrinin inkişafına özəl sərmayənin cəlbinin stimullaşdırılması istiqamətində Strateji Yol Xəritəsinin tədbirlərinə uyğun olaraq işlər sürətləndirilə bilər.*

*2. Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin icrası istiqamətində işlər sürətləndirilə bilər.*

*3. Rəqabət məcəlləsinin qəbul edilməsi və institusional islahatların aparılması istiqamətində işlər sürətləndirilə bilər.*

** Yarımillik hesabatda qiymətləndirmə əlaqələndirici qurum tərəfindən görülmüş işlərə dair təqdim edilmiş hesabat (2017-ci ilin 6 ayı üzrə), aidiyyəti tərəflərlə müzakirələr, təqdim edilmiş təsdiqedici sənədlər və digər qiymətləndirmə vasitələri əsasında həyata keçirilmişdir. Əlaqələndirici qurum Azərbaycan Respublikasının Mərkəzi Bankıdır.*

## Prioritet 1.1. **Neft gəlirlərinin dövlət büdcəsinə köçürülməsini tənzimləyəcək “qızıl qayda”nın qəbul edilməsi**

**Görülmüş işlər barədə qısa məlumat:**

Büdcə qaydalarının parametrləri beynəlxalq təcrübə nəzərə alınmaqla müəyyənləşdirilmiş və razılaşdırılmış, büdcə qaydaları tətbiq olunacağı təqdirdə dövlət və icmal büdcə göstəricilərinə təsiri və yarana biləcək risklər təhlil edilmiş, habelə proqnoz göstəriciləri hazırlanmışdır. Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin yuxarı həddinin tənzimlənməsi və fiskal dayanıqlılığın gücləndirilməsi məqsədilə yeni büdcə (fiskal) qaydaları ilə bağlı sənədlər Mərkəzi Banka (Maliyyə Sabitliyi Şurasının katibliyinə) təqdim edilmişdir.

| | | |
|---|---|---|
| İcra edilmişdir | – | **0%** |
| İcrasına başlanılmışdır | 2 tədbirdən 2-si | **100%** |
| İcrasına başlanılmamışdır | – | **0%** |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə | Əlaqələndirici qurum tərəfindən təqdim edilmiş məlumatlar |
|---|---|---|---|---|---|
| 1.1.1. “Qızıl qayda” prinsipi ilə uzlaşdırmanın həyata keçirilməsi | Maliyyə Nazirliyi | Dövlət Neft Fondu, İqtisadiyyat Nazirliyi, Maliyyə Sabitliyi Şurası | 2017 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Beynəlxalq Valyuta Fondunun (BVF) texniki missiyası 2017-ci ilin fevral ayında Maliyyə Nazirliyində olmuş və Azərbaycan üçün tətbiq edilə biləcək büdcə qaydaları ilə bağlı hesabat təqdim etmişdir.<br>Bundan əlavə, Avropa İttifaqının (Aİ) “2015-2017-ci illər üzrə dövlət maliyyə idarəçiliyinə dair tədbirlər planının icrasına dəstək layihəsi” çərçivəsində Bolqarıstana təcrübə mübadiləsi səfəri həyata keçirilmişdir.<br>Səfər çərçivəsində dövlət maliyyə idarəçiliyi sahəsində Aİ ölkələrinin qabaqcıl təcrübələri öyrənilmişdir. |
| 1.1.2. “Qızıl qayda” mexanizminin və parametrlərinin müəyyənləşdirilərək qəbul edilməsi | Maliyyə Nazirliyi | Dövlət Neft Fondu, İqtisadiyyat Nazirliyi, Maliyyə Sabitliyi Şurası | 2017 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Büdcə qaydalarının parametrləri müəyyənləşdirilmiş və razılaşdırılmış, büdcə qaydaları tətbiq olunacağı təqdirdə dövlət və icmal büdcə göstəricilərinə təsiri və yarana biləcək risklər təhlil edilmiş, habelə proqnoz göstəriciləri hazırlanmışdır.<br>Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin yuxarı həddinin tənzimlənməsi və fiskal dayanıqlılığın gücləndirilməsi məqsədilə yeni büdcə (fiskal) qaydaları ilə bağlı sənədlər Mərkəzi Banka (Maliyyə Sabitliyi Şurasının katibliyinə) təqdim edilmişdir və yaxın zamanda müzakirəyə çıxarılacağı gözlənilir.<br>Maliyyə Sabitliyi Şurasının iclasında müzakirə edildikdən sonra, təklif edilən əlavə və dəyişikliklər nəzərə alınaraq, büdcə qaydalarına dair təkliflər hökumətə təqdim olunacaqdır. |

# Prioritet 1.2. **Xərc/investisiya intizamının təminatı üçün mexanizmin yaradılması**

**Görülmüş işlər barədə qısa məlumat:**

Avropa İttifaqı və Dünya Bankı tərəfindən təqdim olunan hesabat nəzərə alınmaqla, Ortamüddətli Xərclər Çərçivəsinin və nəticəəsaslı büdcə mexanizmlərinin yaradılmasına dair təkliflər hazırlanmış və iyul ayının 15-dək Mərkəzi Banka (Maliyyə Sabitliyi Şurasının katibliyinə) göndərilməsi nəzərdə tutulmuşdur.

| | | |
|---|---|---|
| İcra edilmişdir | – | **0%** |
| İcrasına başlanılmışdır | 2 tədbirdən 2-si | **100%** |
| İcrasına başlanılmamışdır | – | **0%** |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə | Əlaqələndirici qurum tərəfindən təqdim edilmiş məlumatlar |
|---|---|---|---|---|---|
| 1.2.1. Ortamüddətli Xərclər Çərçivəsinin yaradılması | Maliyyə Nazirliyi | İqtisadiyyat Nazirliyi, Dövlət Neft Fondu, Vergilər Nazirliyi | 2017 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Avropa İttifaqı (Aİ) və Dünya Bankı (DB) ilə yaxından əməkdaşlıq edilmiş və onlar tərəfindən təqdim olunan təkliflər nəzərə alınmışdır.<br>Aİ və DB tərəfindən təqdim olunan hesabat nəzərə alınmaqla, Ortamüddətli Xərclər Çərçivəsinin mexanizmlərinin yaradılmasına dair təkliflər hazırlanmış və iyul ayının 15-dək Mərkəzi Banka (Maliyyə Sabitliyi Şurasının katibliyinə) göndərilməsi nəzərdə tutulmuşdur. |
| 1.2.2. Nəticəəsaslı büdcə mexanizminin təşkil edilməsi | Maliyyə Nazirliyi | İqtisadiyyat Nazirliyi, Dövlət Neft Fondu, Vergilər Nazirliyi | 2017 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Qabaqcıl Aİ ölkələrinin dövlət maliyyə idarəetməsində nəticələrə əsaslanan büdcə mexanizminin qurulması qaydaları öyrənilmişdir.<br>Aİ və DB tərəfindən təqdim olunan hesabat nəzərə alınmaqla, nəticəəsaslı büdcə mexanizminin yaradılmasına dair təkliflər hazırlanmış və iyul ayının 15-dək Maliyyə Sabitliyi Şurasına göndərilməsi nəzərdə tutulmuşdur.<br>Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Aİ və DB ilə yaxından əməkdaşlıq edilmiş və onlar tərəfindən təqdim olunan təkliflər nəzərə alınmışdır.<br>Aİ və DB tərəfindən təqdim olunan hesabat nəzərə alınmaqla, Ortamüddətli Xərclər Çərçivəsinin mexanizmlərinin yaradılmasına dair təkliflər hazırlanmış və iyul ayının 15-dək Mərkəzi Banka (Maliyyə Sabitliyi Şurasının katibliyinə) göndərilməsi nəzərdə tutulmuşdur. |

## Prioritet 1.3. **Yeni iqtisadi modeldə effektiv pul siyasəti rejiminin tətbiq edilməsi**

**Görülmüş işlər barədə qısa məlumat:**

“2017-ci il və ortamüddətli dövrə makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması üzrə tədbirlər planı” işlənib hazırlanmış və Şuranın 2016-cı il 29 dekabr tarixli 5 nömrəli protokolu ilə təsdiq edilmişdir. Üzən məzənnəyə keçid hesabına məzənnə rejiminin çevikliyi artırılmışdır. Yeni fiskal qaydalar hazırlanmış və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilmişdir. Üzən məzənnəyə effektiv keçidin dəstəklənməsi üçün Dövlət Neft Fondunun 2017-ci il üçün təsdiq olunmuş büdcəsində makroiqtisadi sabitliyin təmin edilməsi məqsədilə Mərkəzi Banka müvafiq məbləğdə transfert nəzərdə tutulmuş, habelə dövlət borc strategiyasının hazırlanması üçün texniki yardım cəlb edilmişdir. “Azərbaycan Respublikasının rezident və qeyri-rezidentlərinin xarici valyuta əməliyyatlarının aparılması Qaydaları” yenilənmiş, Vergi Məcəlləsində edilən dəyişikliklərə əsasən, 2017-ci ildən etibarən kritik sosial əhəmiyyət daşımayan idxal malları üzrə aksiz dərəcələri artırılmışdır. Zəruri hazırlıq işlərindən sonra Mərkəzi Bank cari ildə məzənnə rejiminin çevikliyinin artırılması istiqamətində bir sıra qərarlar qəbul etmişdir. İqtisadi subyektlərdə adekvat gözləntilər formalaşdırmaq üçün pul-məzənnə siyasətinin effektiv kommunikasiyası çərçivəsində rüblük əsasda “Pul siyasəti icmalı” nəşr edilərək yayımlanmış, müvafiq pul siyasəti qərarları və onların əsaslandırmalarının operativ əsasda ictimaiyyətə çatdırılması təmin edilmişdir.

| | | |
|---|---|---|
| İcra edilmişdir | 5 tədbirdən 3-ü | **60%** |
| İcrasına başlanılmışdır | 5 tədbirdən 2-si | **40%** |
| İcrasına başlanılmamışdır | – | **0%** |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə | Əlaqələndirici qurum tərəfindən təqdim edilmiş məlumatlar |
|---|---|---|---|---|---|
| 1.3.1. Makroiqtisadi koordinasiyanın təmin edilməsi | Maliyyə Sabitliyi Surası | | 2017-2018 | ☒ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | “2017-ci il və ortamüddətli dövrə makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması üzrə tədbirlər planı” işlənib hazırlanmış və Şuranın 2016-cı il 29 dekabr tarixli 5 nömrəli protokolu ilə təsdiq edilmişdir.<br>Üzən məzənnəyə keçid hesabına məzənnə rejiminin çevikliyi artırılmışdır.<br>Yeni fiskal qaydalar hazırlanmış və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilmişdir.<br>Üzən məzənnəyə effektiv keçidin dəstəklənməsi üçün Dövlət Neft Fondunun 2017-ci il üçün təsdiq olunmuş büdcəsində makroiqtisadi sabitliyin təmin edilməsi məqsədilə Mərkəzi Banka müvafiq məbləğdə transfert nəzərdə tutulmuş, habelə dövlət borc strategiyasının hazırlanması üçün texniki yardım cəlb edilmişdir.<br>“Azərbaycan Respublikasının rezident və qeyri-rezidentlərinin xarici valyuta əməliyyatlarının aparılması Qaydaları” yenilənmiş, Vergi Məcəlləsində edilən dəyişikliklərə əsasən, 2017-ci ildən etibarən kritik sosial əhəmiyyət daşımayan idxal malları üzrə aksiz dərəcələri artırılmışdır. |
| 1.3.2. Yeni alternativ lövbərin hədəflənməsi | Mərkəzi Bank | Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2016-2017 | ☒ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Məzənnə rejiminin çevikliyinin artırılması ilə bağlı yeni alternativ lövbərin hədəflənməsinə keçid istiqamətində işlər davam etdirilmişdir. Ümumilikdə, Mərkəzi Bank alternativ pul siyasəti lövbəri kimi maliyyə bazarlarının inkişaf səviyyəsindən asılı olaraq, ilkin mərhələdə pul bazasından, sonrakı mərhələdə isə qısamüddətli faiz dərəcəsindən istifadə etməyi nəzərdə tutur.<br>2017-ci ildə pul bazasının artım kanalları inflyasiyanı yüksəldən amillər nəzərə alınmaqla hazırlanmış və razılaşdırılmış pul proqramı ilə idarəetməyə götürülmüşdür. Pul təklifi kanallarının pul proqramına uyğun olaraq tənzimlənməsi manatın məzənnəsinə əlavə təzyiqlərin aradan qaldırılması və bu yolla inflyasiyanın yüksəlməsinin qarşısının alınmasında mühüm rol oynamışdır. |
| 1.3.3. Tam üzən məzənnə rejiminə keçidin təmin edilməsi | Mərkəzi Bank | Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, | 2017 | ☒ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Makroiqtisadi və maliyyə sabitliyinin təmin olunmasına yönəlmiş kompleks tədbirlər, makroiqtisadi dayanıqlılığın təmin edilməsi istiqamətində qəbul edilmiş qərarlar məzənnə rejiminin çevikliyinin daha da artırılmasına əlverişli zəmin |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | Maliyyə Bazarlarına Nəzarət Palatası | | | yaratmışdır.<br>Zəruri hazırlıq işlərindən sonra Mərkəzi Bank cari ildə məzənnə rejiminin çevikliyinin artırılması istiqamətində bir sıra qərarlar qəbul etmişdir. Belə ki, 2017-ci il 12 yanvar tarixindən birtərəfli və tam rəqabətli valyuta satışı hərraclarının keçirilməsinə başlanılmışdır.<br>Yeni məzənnə rejiminin tətbiqi Mərkəzi Bankın ehtiyatlarının zəruri səviyyədə qorunmasına imkan verir. Belə ki, 2017-ci il iyun ayının sonuna Mərkəzi Bankın xarici valyuta ehtiyatları 4.9 milyard ABŞ dollarını ötmüşdür. |
| 1.3.4. Banklararası bazarın fəaliyyətinin təkmilləşdirilməsi | Maliyyə Bazarlarına Nəzarət Palatası | Maliyyə Nazirliyi, Mərkəzi Bank | 2017 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | 2017-ci ildə Mərkəzi Bankda banklararası pul bazarının inkişafının təşviqi ilə bağlı təhlillər və maliyyə bazarının iştirakçıları, eləcə də beynəlxalq təşkilatlarla məsləhətləşmələr davam etdirilmişdir. Hazırda zəruri təkliflərin formalaşdırılması və aidiyyəti orqanlara təqdim edilməsi üzrə işlər aparılır.<br>Bundan əlavə, Mərkəzi Bank tərəfindən açıq bazar əməliyyatlarından aktiv istifadə banklararası pul bazarının inkişafına müsbət təsir göstərən amil olmuşdur. Cari ilin ötən dövründə Mərkəzi Bank milli valyutada sərbəst vəsaitlərin cəlb olunması üzrə 31 depozit hərracı, notların yerləşdirilməsi üzrə 23 hərrac keçirmişdir.<br>Depozit əməliyyatları ilə vəsaitlər 14 gün müddətinə cəlb edilmiş, notlar isə 28 gün müddətinə yerləşdirilmişdir. Qeyd etmək lazımdır ki, Mərkəzi Bankın emissiya etdiyi qısamüddətli notlardan banklararası bazarda girov kimi istifadə oluna bilər. |
| 1.3.5. Adekvat iqtisadi gözləntilərin formalaşdırılması və idarə edilməsi | Mərkəzi Bank | Maliyyə Bazarlarına Nəzarət Palatası, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2017-2018 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | İqtisadi subyektlərdə adekvat gözləntilər formalaşdırmaq üçün pul-məzənnə siyasətinin effektiv kommunikasiyası çərçivəsində rüblük əsasda “Pul siyasəti icmalı” nəşr edilərək yayımlanmış, müvafiq pul siyasəti qərarları və onların əsaslandırmalarının operativ əsasda ictimaiyyətə çatdırılması təmin edilmişdir. Eyni zamanda, Mərkəzi Bankın İdarə Heyəti üzvlərinin çıxış və müsahibələrində pul siyasətinin hədəfləri və bu hədəflərə nail olunması vəziyyəti barədə ictimaiyyətə ətraflı məlumat verilmişdir. |

# Prioritet 2.1. İqtisadiyyatda dövlət sektorunun rolunun səmərəliliyinin artırılmasına dair ümumi yanaşmanın koordinasiya edilməsi

**Görülmüş işlər barədə qısa məlumat:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 21 oktyabr tarixli 550s nömrəli sərəncamı ilə "Ortamüddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahısı" və "Ortamüddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin restrukturizasiyası həyata keçirilməklə onların tabeliyindən çıxarılaraq özəlləşdirilməsi nəzərdə tutulan qeyri-profil müəssisə və obyektlərin siyahısı" təsdiq edilmişdir.

Yerli və xarici investorlarla əməkdaşlığın genişləndirilməsi, özəlləşdirmə prosesinin təbliği və bu zaman şəffaflığın təmin olunması məqsədi ilə "Özəlləşdirmə portalı" yaradılmış, onun yerli və xarici investorlar, ictimaiyyət, jurnalistlər, beynəlxalq təşkilatlar və məsləhətçi şirkətlər üçün təqdimatı təşkil edilmişdir.

Əmlak Məsələləri Dövlət Komitəsinin və aidiyyəti qurumların rəy və təklifləri əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 dekabr tarixli 636s nömrəli sərəncamı ilə "İri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində şəffaflığın artırılmasına və səmərəliliyin yüksəldilməsinə dair Tədbirlər Planı" təsdiq edilmişdir.

2017-ci ilin ilk yarımili ərzində kiçik dövlət müəssisə və obyektlərinin, qeyri-yaşayış sahələrinin özəlləşdirilməsi ilə bağlı hazırlanmış 39 sərəncama əsasən, 442 müəssisə və obyektin özəlləşdirilməsi ilə əlaqədar qərar qəbul edilmişdir. 2017-ci il ərzində hərracı baş tutmuş 395 kiçik dövlət müəssisə və obyektinin 221-i, icarəyə verilmiş 246 qeyri-yaşayış sahəsinin 89-u, ümumilikdə isə 310 müəssisə və obyekt satılmışdır. 2017-ci ilin ilk yarımili ərzində 152 obyektin yerləşdiyi torpaq sahəsinin özəlləşdirilməsi ilə bağlı qərar qəbul edilmiş və 155 obyektin yerləşdiyi (bundan 7–nin özəlləşdirilməsi barədə ötən il qərar qəbul edilmişdir) torpaq sahəsi özəlləşdirilmişdir.

Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin idarə olunmasında şəffaflığı artırmaq, sahibkarlığın inkişafı və sağlam rəqabət mühitinin formalaşdırılması istiqamətində işləri sürətləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 sentyabr tarixli 2300 nömrəli Sərəncamının və Strateji Yol Xəritəsinin 2.1.2-ci tədbirinin icrasını təmin etmək məqsədilə "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası", "Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə Qaydaları və Standartları" və "Dövlət müəssisələrinin idarəetmə orqanlarının üzvlərinə onların fəaliyyətinin nəticələrinə əsaslanan ödəniş sistemi ilə ("Performance Based Remuneration System") bonus ödənişlərinin verilməsi qaydası" barədə qərar layihələri hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.

**Problemlər:**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 21 oktyabr tarixli 550s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Ortamüddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahısı" Strateji Yol Xəritəsinin 2.1.1-ci tədbirinə əsasən, dövlət mülkiyyətinə tələbatın verilən meyarları əsasında yenilənməmişdir. Həmçinin meyarlara uyğun olmayan və özəlləşdirilməyə açılan bütün müəssisələrin siyahısı hazırlanaraq özəlləşdirmə portalında yerləşdirilməmişdir.**

**Tövsiyələr:**

*1. Beynəlxalq məsləhətçi şirkətlər, özəl sektor nümayəndələri cəlb edilməklə, dövlət mülkiyyətində saxlanılmalı olan müəssisələrin siyahısı verilmiş meyarlar əsasında yenidən işlənilə bilər.*

*2. Dövlət mülkiyyətində saxlanılmalı və özəlləşdirilməyə açılan bütün növ müəssisələrin vahid siyahısı hazırlana və özəlləşdirmə portalında yerləşdirilə bilər.*

*3. Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, xarici və yerli investorlarla məsləhətləşmə şəraitində "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun yeni redaksiyası hazırlana bilər.*

| | | |
|---|---|---|
| İcra edilmişdir | 3 tədbirdən 2-si | **67%** |
| İcrasına başlanılmışdır | 3 tədbirdən 1-i | **33%** |
| İcrasına başlanılmamışdır | – | **0%** |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə | Əlaqələndirici qurum tərəfindən təqdim edilmiş məlumatlar |
|---|---|---|---|---|---|
| 2.1.1. Dövlət mülkiyyətçiliyinə əsaslanan tələbatın müəyyən edilməsi | Əmlak Məsələləri Dövlət Komitəsi | İqtisadiyyat Nazirliyi | 2017-2020 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Əmlak Məsələləri Dövlət Komitəsi 2017-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"na uyğun olaraq, dövlətin adından təsisçi funksiyalarının icrası ilə əlaqədar Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təsis edilmiş, təsis edilməsinə razılıq verilmiş, yenidən təşkil olunmuş dövlət müəssisələri ilə bağlı 2.1.1-ci bənddə göstərilən, dövlət mülkiyyətçiliyinə əsaslanan tələbatı müəyyən edən meyarları nəzərə almışdır.<br>Belə ki, 2017-ci ilin yanvar-iyun ayları ərzində 16 müəssisənin təsis edilməsi ilə bağlı komitəyə daxil olmuş müraciətlər əsasında 7 müəssisə meyarlara uyğun olduğu üçün təsis edilmişdir. Eyni zamanda, yeni dövlət müəssisələrinin təsis olunmasına razılıq bildirilməsi ilə bağlı digər dövlət qurumlarından daxil olan müraciətlərə dair komitə təqdim etdiyi rəylərdə 2.1.1-ci bənddə müəyyən edilən dövlət mülkiyyətçiliyinə əsaslanan tələbatı müəyyən edən meyarların nəzərə alınması qeyd olunmuşdur. |
| 2.1.2. Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması | Əmlak Məsələləri Dövlət Komitəsi | | 2016-2018 | ☒ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 21 oktyabr tarixli 550s nömrəli sərəncamı ilə "Ortamüddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahısı" və "Ortamüddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin restrukturizasiyası həyata keçirilməklə onların tabeliyindən çıxarılaraq özəlləşdirilməsi nəzərdə tutulan qeyri-profil müəssisə və obyektlərin siyahısı" təsdiq edilmişdir.<br>Hazırda təsdiq edilmiş siyahılara uyğun olaraq, ortamüddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin tabeliyindən çıxarılan qeyri-profil müəssisə və obyektlərin özəlləşdirilməsi istiqamətində işlər aparılır. Özəlləşdirməyə açıq elan olunmuş həmin müəssisə və obyektlərdə müvafiq inventarizasiya işləri aparılmış, ümumilikdə 304 müəssisə və obyektdən 254-nün, həmçinin Azərbaycan |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Respublikası Mədəniyyət və Turizm Nazirliyinin balansında olan mədəniyyət evləri və klublarından 339-nun texniki pasport və baş planları hazırlanmışdır.<br>“Özəlləşdirilən dövlət müəssisələrinin, aqrar islahatları nəticəsində ləğv olunmuş və işğal altında olan rayonların təsərrüfat subyektlərinin borcları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” qanun layihəsi hazırlanaraq 2016-cı il 8 avqust tarixli 160120805164 nömrəli məktubla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.<br>Həmçinin layihənin aidiyyəti dövlət orqanlarının irad və təklifləri nəzərə alınmaqla, yenidən işlənilmiş variantı 2017-ci il 30 may tarixli 170120804196 nömrəli məktubla Nazirlər Kabinetinə göndərilmişdir.<br>Yerli və xarici investorlarla əməkdaşlığın genişləndirilməsi, özəlləşdirmə prosesinin təbliği və bu zaman şəffaflığın təmin olunması məqsədilə 2016-cı ilin iyul ayında “Özəlləşdirmə portalı” yaradılmış, onun yerli və xarici investorlar, ictimaiyyət, jurnalistlər, beynəlxalq təşkilatlar və məsləhətçi şirkətlər üçün təqdimatı təşkil edilmişdir.<br>Əmlak Məsələləri Dövlət Komitəsinin və aidiyyəti qurumların rəy və təklifləri əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 dekabr tarixli 636s nömrəli sərəncamı ilə “İri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində şəffaflığın artırılmasına və səmərəliliyin yüksəldilməsinə dair Tədbirlər Planı” təsdiq edilmişdir.<br>Tədbirlər Planının 1-ci, 2-ci, 6-cı və 10-cu bəndləri üzrə komitəyə həvalə edilmiş tədbirlər üzrə müvafiq işlər görülmüşdür.<br>Komitənin sərəncamında olan “Sənayeavtomatika” İstehsalat Birliyinin, “Gəncə Xalça Kombinatı” Məhdud Məsuliyyətli Cəmiyyətinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Tibb Texnikasının Təmiri və Quraşdırma Baza Zavodunun və “Azneftkimyamaş” ASC-nin törəmə müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi ilə bağlı müvafiq işlər aparılmışdır.<br>“Dülgər” Məhdud Məsuliyyətli Cəmiyyətinin nizamnamə kapitalında dövlətin payının inventarizasiya olunaraq |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | yenidən qiymətləndirilməsi ilə bağlı müvafiq işlər aparılmışdır.<br>2017-ci ilin ilk yarımili ərzində kiçik dövlət müəssisə və obyektlərinin, qeyri-yaşayış sahələrinin özəlləşdirilməsi ilə bağlı hazırlanmış 39 sərəncama əsasən 442 müəssisə və obyektin özəlləşdirilməsi ilə əlaqədar qərar qəbul edilmişdir.<br>Bunlardan 92 kiçik dövlət müəssisə və obyektinin, 94 istifadəsiz qeyri-yaşayış sahəsinin və tikintisi yarımçıq qalmış 10 tikilinin hərraclara çıxarılması barədə qərar qəbul edilmiş, icarəyə verilmiş 246 qeyri-yaşayış sahəsinin isə 100 faiz dəyəri ilə satın alınmaq üçün icarəçilərə təklif edilərək özəlləşdirilməsi barədə hər bir icarəçiyə bildiriş məktubu göndərilmişdir.<br>Bundan başqa, icarəçilərə təklif olunan və qanunvericilikdə nəzərdə tutulmuş müddətdə alqı-satqı müqaviləsinin imzalanması və dəyərinin ödənilməsi təmin edilməmiş 218 qeyri-yaşayış sahəsinin və alqı-satqı müqaviləsi ləğv edilən 5 kiçik dövlət müəssisəsinin təkrar hərraca çıxarılması barədə tədbir görülmüşdür.<br>2017-ci il ərzində hərracı baş tutmuş 395 kiçik dövlət müəssisə və obyektinin 221-i, icarəyə verilmiş 246 qeyri-yaşayış sahəsinin 89-u, ümumilikdə isə 310 müəssisə və obyekt satılmışdır.<br>2017-ci ilin ilk yarımili ərzində 152 obyektin yerləşdiyi torpaq sahəsinin özəlləşdirilməsi ilə bağlı qərar qəbul edilmiş və 155 obyektin yerləşdiyi (bundan 7–nin özəlləşdirilməsi barədə ötən il qərar qəbul edilmişdir) torpaq sahəsi özəlləşdirilmişdir. |
| 2.1.2. İdarəetmənin təkmilləşdirilməsi və səmərəliliyin yüksəldilməsi məqsədilə dövlət mülkiyyətində olan müəssisələr üzrə islahat proqramının icrası | Əmlak Məsələləri Dövlət Komitəsi | İqtisadiyyat Nazirliyi | 2017-2018 | ☒ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin idarə olunmasında şəffaflığı artırmaq, sahibkarlığın inkişafı və sağlam rəqabət mühitinin formalaşdırılması istiqamətində işləri sürətləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2016-cı il 5 sentyabr tarixli 2300 nömrəli Sərəncam imzalanmışdır. Sərəncamın icrası ilə əlaqədar komitənin müvafiq rəyləri əsasında İqtisadiyyat Nazirliyi tərəfindən “Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası” və “Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | cəmiyyətlərində korporativ idarəetmə Qaydaları və Standartları” və “Dövlət müəssisələrinin idarəetmə orqanlarının üzvlərinə onların fəaliyyətinin nəticələrinə əsaslanan ödəniş sistemi ilə (“Performance Based Remuneration System”) bonus ödənişlərinin verilməsi qaydası” barədə qərar layihələri hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir. |

## Prioritet 2.2. Özəlləşdirmə gündəliyinin uğurla icrası və prioritet sektorlarda özəlləşdirmənin həyata keçirilməsi

**<u>Görülmüş işlər barədə qısa məlumat:</u>**

Özəlləşdirməyə açıq elan olunmuş həmin müəssisə və obyektlərdə müvafiq inventarizasiya işləri aparılmış, ümumilikdə 304 müəssisə və obyektdən 254-nün, həmçinin Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin balansında olan mədəniyyət evləri və klublarından 339-nun texniki pasport və baş planları hazırlanmışdır. Əmlak Məsələləri Dövlət Komitəsi özəlləşdirmə prosesinə xarici investorların cəlb edilməsi məqsədilə dünyada yüksək reytinqə malik olan məsləhətçi şirkətlərlə əməkdaşlıq edərək onlarla birlikdə bu istiqamətdə müvafiq işlər aparır.

Strateji Yol Xəritələrində müəyyən edilmiş prioritet sektorlar da daxil olmaqla, özəlləşdirilən dövlət əmlaklarının müstəqil qiymətləndiricilər cəlb olunmaqla sırf bazar prinsipləri əsasında qiymətləndirilməsi və açıq hərraclar (o cümlədən elektron hərraclar) vasitəsilə satışa yönəldilməsi təmin edilmişdir. Yeni formatda artıq 40-dan artıq hərrac keçirilmiş, həmin hərraclarda 1400-ə yaxın dövlət əmlakı satışa çıxarılmışdır.

Özəlləşdirilən istehsal təyinatlı müəssisələr əsasən investisiya müsabiqələri vasitəsilə özəlləşdiriləcək və bu zaman potensial alıcılardan İnvestisiya Proqramının (biznes-planın) icrası tələb olunacaqdır. İnvestisiya Proqramının reallaşdırılması nəticəsində istehsal müəssisələri fəaliyyəti bərpa olunmaqla inkişaf edəcək, müasir standartlara uyğun yenidən qurulacaq, rəqabətqabiliyyətli məhsul istehsal edə biləcəklər. Bu yanaşma əsasında artıq 8 investisiya müsabiqəsi elan edilmiş, 2 halda müsabiqələr baş tutaraq, investorlarla müvafiq alqı-satqı müqavilələri imzalanmışdır.

“Daşkəsən Filizsaflaşdırma” ASC-nin dövlətə məxsus səhmlərinin özəlləşdirilməsi prosesinə məsləhətçi şirkət cəlb edilmişdir. Müəssisənin özəlləşdirilməsinə maraq göstərən yerli və xarici şirkətlərlə danışıqlar aparılmış, müəssisə ilə bağlı onları maraqlandıran suallar cavablandırılmış, zəruri məlumatlar verilmişdir.

**<u>Problemlər:</u>**

**1. 2.2.1-ci tədbirdə nəzərdə tutulduğu kimi, xarici investisiyaların özəlləşdirməyə cəlb edilməsi və xarici investorların stimullaşdırılması üçün onlara əlavə güzəşt və üstünlüklərin, eləcə də dövlət zəmanətlərinin verilməsi ilə bağlı təkliflər təqdim edilməmişdir.**

**2. 2.2.2-ci tədbirdə neft-qaz müəssisələrinin kapitala çıxış imkanlarının yüksəldilməsi, kommunal xidmətlər sahəsində səmərəliliyin və keyfiyyət səviyyəsinin təmin edilməsi, ağır sənaye və maşınqayırma sahəsində istifadə edilməyən aktivlərin qiymətləndirilməsi, aktivlərin sağlamlaşdırılması, logistika sahəsində dövlət aktivlərinin özəlləşdirilməsi, turizm obyektlərinin özəlləşdirilməsi imkanlarının qiymətləndirilməsi istiqamətində təkliflər işlənib hazırlanmamışdır.**

**<u>Tövsiyələr:</u>**

*1. Xarici investorların özəlləşdirmə prosesinə cəlbinin stimullaşdırılması ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi və müvafiq təkliflərin hazırlanması istiqamətində iş aparıla bilər.*

*2. Özəlləşdirilməyə açılan obyektlər haqqında daha müfəssəl və investorların diqqətini cəlb edəcək məlumatların özəlləşdirmə portalında yerləşdirilməsi istiqamətində iş aparıla bilər.*

| | | |
|---|---|---|
| İcra edilmişdir | – | **0%** |
| İcrasına başlanılmışdır | 2 tədbirdən 2-si | **100%** |
| İcrasına başlanılmamışdır | – | **0%** |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə | Əlaqələndirici qurum tərəfindən təqdim edilmiş məlumatlar |
|---|---|---|---|---|---|
| 2.2.1. Gələcəkdə özəlləşdirməyə açıq elan edilə biləcək bəzi təsnif olunmuş əmlaklara dair özəlləşdirmə gündəliyinin idarə olunması | Əmlak Məsələləri Dövlət Komitəsi | İqtisadiyyat Nazirliyi | 2017 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 21 oktyabr tarixli 550s nömrəli sərəncamına əsasən ortamüddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahısı təsdiq edilmiş və həmin dövlət müəssisələrinin restrukturizasiyasının həyata keçirilməsi baxımından onların tabeliyində olan qeyri-profil müəssisə və obyektlərin özəlləşdirilməsi üçün tədbirlərin görülməsi Əmlak Məsələləri Dövlət Komitəsinə tapşırılmışdır.<br>Özəlləşdirməyə açıq elan olunmuş həmin müəssisə və obyektlərdə müvafiq inventarizasiya işləri aparılmış, ümumilikdə 304 müəssisə və obyektdən 254-nün, həmçinin Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin balansında olan mədəniyyət evləri və klublarından 339-nun texniki pasport və baş planları hazırlanmışdır.<br>Eyni zamanda, aparılan inventarizasiya işləri zamanı müəssisə və obyektlərin mövcud perspektivləri təhlil edilmiş və investisiya cəlb ediləcək müəssisələr müəyyənləşdirilmişdir.<br>Hazırda həmin müəssisə və obyektlərin özəlləşdirilməsi istiqamətində komitə zəruri tədbirlər həyata keçirir.<br>Əmlak Məsələləri Dövlət Komitəsi özəlləşdirmə prosesinə xarici investorların cəlb edilməsi məqsədilə dünyada yüksək reytinqə malik olan məsləhətçi şirkətlərlə əməkdaşlıq edərək, onlarla birlikdə bu istiqamətdə müvafiq iş aparır. |
| 2.2.2. Prioritet sektorlarda müəyyən edilmiş özəlləşdirmə yanaşmasının tətbiqi | Əmlak Məsələləri Dövlət Komitəsi | İqtisadiyyat Nazirliyi | 2017-2018 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Strateji yol xəritələrinin qəbulu ilə, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən dövlət əmlakının idarə olunması, özəlləşdirilməsi və idarəetməyə verilməsi sahələrində yeni yanaşmaların tətbiqinə başlanılmış, Strateji yol xəritələrində müəyyən edilmiş prioritet sektorlar da daxil olmaqla, özəlləşdirilən dövlət əmlakının müstəqil qiymətləndiricilər cəlb olunmaqla sırf bazar prinsipləri əsasında qiymətləndirilməsi və açıq hərraclar (o cümlədən elektron hərraclar) vasitəsilə satışa yönəldilməsi təmin edilmişdir. Yeni formatda artıq 40-dan artıq hərrac keçirilmiş, həmin hərraclarda 1400-ə yaxın dövlət əmlakı satışa çıxarılmışdır.<br>Eyni zamanda, özəlləşdirmə prosesinin şəffaflığının təmin olunması və özəlləşdirilən müəssisələr haqqında məlumatların ictimaiyyətə əvvəlcədən və tam açıqlanması istiqamətində də bəzi yeniliklər tətbiq edilmişdir. Hazırda |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | özəlləşdirmədə iştirak etmək istəyən istənilən fiziki və hüquqi şəxs komitənin saytı, xüsusən bu məqsədlər üçün yaradılmış özəlləşdirmə portalı, habelə “Mülkiyyət” qəzeti və “Daşınmaz əmlak” jurnalı vasitəsilə müvafiq müəssisə və obyektlər haqqında tam dolğun məlumatlar əldə etmək imkanına malikdir.<br>Bu məlumatlar digər kütləvi informasiya vasitələrində də, o cümlədən rus və ingilis dillərində yerləşdirilir, potensial alıcılar hər hansı süni maneə və məmur təması ilə üzləşmədən auksionlara sifariş verib sərbəst rəqabət mühitində iddia etdiyi əmlaka sahib ola bilirlər.<br>Potensial alıcıların özəlləşdirilən müəssisələr haqqında daha dolğun məlumatlandırılması məqsədilə “Özəlləşdirmə portalı” yaradılmışdır, portalda özəlləşdirilən müəssisələrin foto görüntüləri, ortofoto xəritələri, müəssisə haqqında məlumat, onun qısa SWOT-təhlili, ilkin marketinq araşdırması, infrastruktur təminatı, əsas nəqliyyat qovşaqlarına çıxışı, mövcud və potensial bazarlar və s. haqqında məlumatlar öz əksini tapmaqla, potensial investorlarda müəssisələr haqqında əsaslı təəssürat yaratmağa imkan verir.<br>Yeni yanaşma hesab olunacaq daha bir məqam ondan ibarətdir ki, bundan sonra özəlləşdirilən istehsal təyinatlı müəssisələr, əsasən investisiya müsabiqələri vasitəsilə özəlləşdiriləcək və bu zaman potensial alıcılardan İnvestisiya Proqramının (biznes-planın) icrası tələb olunacaqdır. İnvestisiya Proqramının reallaşdırılması nəticəsində istehsal müəssisələrimizin fəaliyyəti bərpa olunmaqla inkişaf edəcək, onlar müasir standartlara uyğun yenidən qurulacaq, rəqabətqabiliyyətli məhsul istehsal edə biləcəklər. Bu yanaşma əsasında artıq 8 investisiya müsabiqəsi elan edilmiş, 2 halda müsabiqələr baş tutaraq, investorlarla müvafiq alqı-satqı müqavilələri imzalanmışdır. Belə yanaşma yeni iş yerlərinin açılmasına və sosial məsələlərin həllinə öz töhfəsini verəcəkdir.<br>Qeyd edilənlərlə yanaşı, hazırda komitə tərəfindən özəlləşdirmə qanunvericiliyinə bəzi əlavə və dəyişikliklər edilməsi ilə bağlı təkliflər də hazırlanmaqdadır.<br>Həmin təkliflərə əsasən, özəlləşdirmə üsullarının zənginləşdirilməsi, hərraclarda bir neçə dəfə satılmayan əmlakın müxtəlif iqtisadi və sosial şərtlər müqabilində qiymətinin endirilməsi mexanizmindən istifadə təklif olunur. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Hərracların elektron formatda keçirilməsi, torpaq sahələrinin əmlak və tikililərlə birlikdə özəlləşdirilməsi, onların müsabiqə yolu ilə icarəyə verilməsi də komitənin hazırladığı təkliflər sırasındadır.<br>Təkliflər hazırlanarkən, nüfuzlu xarici məsləhətçi şirkətlərin və beynəlxalq maliyyə institutlarının tövsiyələrindən geniş istifadə olunmuşdur. Həmin təkliflərin qəbulu ilə özəlləşdirməqabağı sağlamlaşdırma və restrukturizasiya tədbirləri, habelə özəlləşdirilmiş müəssisələrə mümkün dövlət dəstəyi tədbirləri istiqamətində fəaliyyət gücləndiriləcəkdir. Özəlləşdirilən müəssisələrin borclarının tənzimlənməsi, investorlara müxtəlif vergi və tarif güzəştlərinin aid edilməsi, daxili bazarın qorunması və s. kimi tədbirlərin alıcılara tətbiqi də gündəmdə duran məsələlərdəndir.<br>Strateji yol xəritələrində müəyyən edilmiş prioritet sektorlardan kommunal, ağır sənaye və maşınqayırma, kimya, rabitə və telekommunikasiya, kənd təsərrüfatı və ixtisaslaşmış turizm sektorları ilə bağlı görüən işlər müvafiq sahələr üzrə hesabatlarda öz əksini tapacaqdır.<br>“Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi”nin Tədbirlər Planının “Canlandırma fəaliyyətinin həyata keçirilməsi (2018-2020)” adlı 1.3.3-cü, “Qara metallurgiya kompleksindən tam həcmdə istifadə edilməsi (2017-2020) ” adlı 2.3.1-ci və “Əlvan metallurgiyanın inkişaf etdirilməsi (2017-2020)” adlı 2.3.2-ci yarımbəndlərinin icrası ilə əlaqədar işçi qrup yaradılmışdır.<br>Cari ilin may ayında işçi qrupun ilk iclası keçirilmiş, iclasda tədbirin icrası ilə bağlı qrup üzvləri arasında fikir mübadiləsi aparılmış, qrupun 2017-ci il üçün iş proqramı qəbul edilmişdir.<br>“Daşkəsən Filizsaflaşdırma” ASC-nin dövlətə məxsus səhmlərinin özəlləşdirilməsi prosesinə məsləhətçi şirkət cəlb edilmiş, məsləhətçi şirkətin tövsiyələri nəzərə alınmaqla, “Daşkəsən Filizsaflaşdırma” ASC-nin səhmlərinin satışı üzrə investisiya müsabiqəsi elan edilmiş, sonradan müsabiqənin müddəti 31.08.2017-ci il tarixinədək uzadılmışdır.<br>Müəssisənin özəlləşdirilməsi prosesinə strateji investorların cəlb olunması məqsədilə polad istehsalı üzrə ixtisaslaşan 50-dən artıq şirkətə ünvanlı dəvət məktubları göndərilmiş, |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | müəssisənin özəlləşdirilməsinə maraq göstərən bir neçə yerli və xarici şirkətlə danışıqlar aparılmış, müəssisə ilə bağlı onları maraqlandıran suallar cavablandırılmış, zəruri məlumatlar verilmişdir. |

## Prioritet 2.3. Özəlləşdirmə və birbaşa xarici investisiya üçün uyğun investorların cəlb olunması

**Görülmüş işlər barədə qısa məlumat:**

Özəlləşdirmə prosesinə yerli və xarici investorların cəlb edilməsi məqsədilə potensial investorlara dair mövcud məlumat bazası genişləndirilmiş, bu şirkətlərin fəaliyyət profili, rəhbər şəxsləri, rekvizitləri və bir sıra digər dəqiqləşdirilmiş, yeni məlumatlar əlavə olunmuşdur.
Azərbaycana maraq göstərəcəyi ehtimal olunan və özəlləşdirilən müəssisələrin profilinə uyğun sahələrdə fəaliyyət göstərən 400-dən artıq şirkətə tanıtım məktubları ünvanlanmışdır. Bu məktublarda Azərbaycan Respublikasında həyata keçirilən dövlətsizləşdirmə prosesi, özəlləşdirməyə açıq olan sahələr, ingilis dilində əlavə məlumatların əldə olunması imkanları və əlaqələndirici şəxslər haqqında məlumatlar əksini tapmışdır.
Eyni zamanda, 40-a yaxın beynəlxalq miqyaslı investisiya bankı və fonduna, pensiya fonduna, eləcə də ölkəmizdə istehsal müəssisəsi qura biləcək region ölkələrinin şirkətlərinə bənzər məzmunlu sahəvi məktublar ünvanlanmışdır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli sərəncamının icrası ilə əlaqədar “Daşkəsən Filizsaflaşdırma” ASC-nin özəlləşdirilməsi ilə bağlı elan edilmiş müsabiqədə iştirak üçün polad istehsalı üzrə ixtisaslaşan daha 51 şirkətə ünvanlı dəvət məktubları göndərilmişdir. Ümumilikdə, özəlləşdirmə prosesinə xarici investorların cəlb edilməsi məqsədilə bu günədək 500-ə yaxın şirkətə məktublar yazılmışdır.
Özəlləşdirmə prosesinə xarici investorların cəlb edilməsi sahəsində Komitə ilə əməkdaşlığa başlanılması məqsədilə dünya reytinqində ilk 20-liyə daxil olan məsləhətçi şirkətlərlə görüşlər keçirilmiş, böyük dördlüyə daxil olan şirkətlərlə uzunmüddətli əməkdaşlığın qurulması ilə bağlı razılıq əldə olunmuşdur. Onlardan bir neçəsi ilə müvafiq anlaşma memorandumları imzalanmışdır.
Özəlləşdirmə prosesinə investorların daha fəal cəlb edilməsi sahəsində əməkdaşlıqla bağlı Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə əməkdaşlıq haqqında Memorandumun imzalanması təmin edilmiş, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə yaxın əməkdaşlıq qurulmuş, yerli və xarici biznes forumlarda özəlləşdirmə layihələri təqdim edilmişdir.Yerli sahibkarların özəlləşdirmə prosesi barədə bilgiləndirilməsi, eləcə də onların prosesdə daha fəal iştirakının təmin olunması məqsədi ilə cari ilin fevral ayında Bakı şəhərində ASK və AZPROMO-nun iştirakı ilə 120-yə yaxın iri yerli holdinq, şirkət, assosiasiya və iş adamının qatıldığı işgüzar forum keçirilmişdir.

**Problemlər:**

**Xarici investorların cəlbi ilə bağlı Strateji Yol Xəritəsində nəzərdə tutulmuş qaydada kifayət qədər iş aparılmamışdır. Belə ki, investisiya fondları, pensiya və ianə fondları və özəl şirkətlər ayrılıqda təhlil edilərək potensial investorların siyahısı müəyyənləşdirilməmişdir. Xarici investorların özəlləşdirməyə dəvət olunmasına baxmayaraq, konkret nəticə əldə edilməmişdir. Bu isə özəlləşdirmə prosesinə xarici investorların cəlbi üçün daha effektiv yanaşmanın seçilməsini zəruri edir. Bu istiqamətdə beynəlxalq təcrübə araşdırılmamışdır.**

**Tövsiyələr:**

*Xarici investorlarla daha sistemli işin təşkili, onlar üçün maraq kəsb edəcək özəlləşdirmə profillərinin və xarici investorların özəlləşdirmə prosesinə cəlb edilməsi üçün əlavə stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanası istiqamətində iş aparıla bilər.*

| | | |
|---|---|---|
| İcra edilmişdir | – | **0%** |
| İcrasına başlanılmışdır | 1 tədbirdən 1-i | **100%** |
| İcrasına başlanılmamışdır | – | **0%** |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə | Əlaqələndirici qurum tərəfindən təqdim edilmiş məlumatlar |
|---|---|---|---|---|---|
| 2.3.1. Ən uyğun investor profillərinə struktur yanaşmanın tətbiq edilməsi | İqtisadiyyat Nazirliyi | Əmlak Məsələləri Dövlət Komitəsi | 2017-2020 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”nin Tədbirlər Planının 2.3.1-ci yarımbəndinin icrası ilə əlaqədar yaradılmış işçi qrupun 16.06.2017-ci il tarixində iclası keçirilmişdir. İşçi qrupun iclasında gündəlikdəki məsələlər - işçi qrupun ümumi məqsədləri və ilkin tapşırıqlarına dair müzakirələr aparılmışdır.<br>“Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”nin Tədbirlər Planının 2.3.1-ci yarımbəndinin icrası ilə əlaqədar yaradılmış işçi qrupun 2017-ci il üçün “İş Proqramı” (bundan sonra – İP) layihəsi müzakirəyə çıxarılmışdır.<br>Daha sonra İP-nin “Potensial investorların ölkə iqtisadiyyatına cəlb edilməsi istiqamətində dövlət-dövlət və dövlət-özəl əməkdaşlıqlarının yaradılması və inkişafı tədbirlərinin həyata keçirilməsi” tədbiri üzrə icraçı qurumlar sırasına AZPROMO-nun əlavə edilməsi, İP-nin 2-ci bəndində qeyd olunmuş “Azərbaycanda özəl sektorun inkişafı məqsədilə şirkət-şirkət əməkdaşlığı, investorlar arasında əlaqələndirmə işləri və təşviq proqramlarının hazırlanması və inkişafı tədbirlərinin həyata keçirilməsi” bəndinin redaktə olunaraq “Azərbaycanda özəl sektorun inkişafı məqsədilə investorlar arasında əlaqələndirmə işlərinin aparılması, təşviq proqramlarının hazırlanması və inkişafı tədbirlərinin həyata keçirilməsi” kimi verilməsi, habelə əsas icraçı qismində AZPROMO müəyyən edilməklə “müxtəlif investisiya sahələri üzrə təşviqat mexanizmlərinin formalaşması və təşviqat proqramlarının hazırlanması” bəndinin əlavə edilməsi təklif olunmuşdur.<br>İP-nin 3-cü bəndində qeyd olunmuş “Müxtəlif investor profillərinin (dövlət investisiya fondları, pensiya fondları, ianə fondları, özəl sektor investorları və s.) araşdırılaraq seçilməsi və cəlb edilməsi istiqamətində əlaqələrin qurulması” tədbiri müzakirə edilmiş və bəndin adının olduğu kimi saxlanılması qərara alınmışdır.<br>Daha sonra İP-nin 4-cü bəndində qeyd olunmuş “Yerli özəl sektorun özəlləşdirmə prosesinə daha çox cəlb edilməsi istiqamətində mühüm tədbirlərin görülməsi: potensial investorların məlumatlandırılması, bu istiqamətdə məlumat |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | bazasının genişləndirilməsi; özəlləşdirmənin faydaları barədə xüsusi təşviqat sənədləri və təqdimatların hazırlanması; özəlləşdirmə siyahısında uzun müddət qalmış, lakin az maraq doğuran müəssisələrin təhlilinin aparılması və təkliflərin hazırlanması; özəlləşdirmə təşəbbüslərinin dəstəklənməsi üçün geniş kommunikasiya strategiyasının həyata keçirilməsi" tədbiri barədə ətraflı məlumat verilmiş və bu bəndin sıralama üzrə 1-ci yerə keçirilməsi, habelə "yerli özəl sektorun" ifadəsindən sonra "və xarici investorların" ifadəsinin artırılması təklif edilmiş və qəbul edilmişdir. Eyni zamanda, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən yaradılmış "Özəlləşdirmə portalı"nın təşviqi ilə bağlı geniş məlumat verilərək, AZPROMO ilə ilkin danışıqların aparıldığı və bu istiqamətdə digər qurumlarla da əməkdaşlığa böyük ehtiyac olduğu bildirilmişdir.<br>Qeyd olunan portal barədə məlumatların xarici investorlarla keçirilən görüşlər və aparılan yazışmalar zamanı qarşı tərəfin diqqətinə çatdırılacağı qeyd olunmuşdur. Eyni zamanda xarici sərmayələrin hərəkəti üzrə müxtəlif ölkələrin təcrübəsinə uyğun olaraq, bu istiqamətdə bir çox işlərin görülməsi və ölkə iqtisadiyyatına yerli və xarici sərmayələrin cəlb edilməsi istiqamətində təqdimat və təşviqat tədbirlərinin gücləndirilməsi vurğulanmışdır.<br>Nəticədə, işçi qrup tərəfindən iş proqramı yuxarıdakı düzəlişlər edilməklə müəyyən edilmişdir. Habelə, işçi qrup iclaslarının ən azı ildə bir dəfə keçirilməsi, icraçı qurumlar arasında əlaqələndirmə işlərinin isə dövri olaraq işçi qaydada aparılması qərara alınmışdır.<br>Özəlləşdirmə və birbaşa xarici investisiya üçün uyğun investorların cəlb olunması məqsədilə ilkin mərhələdə Azərbaycanda reallaşdırılması təklif edilən investisiya layihələri barədə məlumatlar toplanılmış, bu layihələrin mahiyyətinə uyğun xarici investorların müəyyən edilməsi üçün araşdırma işlərinə başlanılmışdır. Belə ki, kənd təsərrüfatı, qida emalı, turizm, informasiya-kommunikasiya texnologiyaları, ağır sənaye və maşınqayırma, kimya sənayesi, bərpa olunan enerji, tikinti, əczaçılıq kimi sahələri əhatə edən investisiya layihələri kataloqu hazırlanmışdır.<br>Cari ilin 6 ayı ərzində həmin investisiya layihələri 95-i Azərbaycanda, 15-i xaricdə olmaqla keçirilmiş 110 tədbir və ikitərəfli görüş çərçivəsində təşviq edilmiş, layihələrə dair |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | məlumatlar maraqlı dairələrə təqdim edilmişdir.<br>Özəlləşdirmə prosesinə yerli və xarici investorların cəlb edilməsi məqsədilə potensial investorlara dair mövcud məlumat bazası genişləndirilmiş, bu şirkətlərin fəaliyyət profili, rəhbər şəxsləri, rekvizitləri və bir sıra digər məlumatlar dəqiqləşdirilmiş, yeni məlumatlar əlavə olunmuşdur.<br>Həmin şirkətlərdən Azərbaycana maraq göstərəcəyi ehtimal olunan və özəlləşdirilən müəssisələrin profilinə uyğun sahələrdə fəaliyyət göstərən 400-dən artığına tanıtım məktubları ünvanlanmışdır. Bu məktublarda Azərbaycan Respublikasında həyata keçirilən dövlətsizləşdirmə prosesi, özəlləşdirməyə açıq olan sahələr, ingilis dilində əlavə məlumatların əldə olunması imkanları və əlaqələndirici şəxslər haqqında məlumatlar öz əksini tapmışdır.<br>Eyni zamanda 40-a yaxın beynəlxalq miqyaslı investisiya bankı və fonduna, pensiya fonduna, eləcə də ölkəmizdə istehsal müəssisəsi qura biləcək region ölkələrinin şirkətlərinə bənzər məzmunlu sahəvi məktublar ünvanlanmışdır.<br>Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli Sərəncamının icrası ilə əlaqədar “Daşkəsən Filizsaflaşdırma” ASC-nin özəlləşdirilməsi ilə bağlı elan edilmiş müsabiqədə iştirak üçün polad istehsalı üzrə ixtisaslaşan daha 51 şirkətə ünvanlı dəvət məktubları göndərilmişdir.<br>Beləliklə, özəlləşdirmə prosesinə xarici investorların cəlb edilməsi məqsədilə bu günədək 500-ə yaxın şirkətə məktublar yazılmış, daha ətraflı məlumatların komitənin saytından və “Özəlləşdirmə portalı”ndan əldə edilməsinin mümkünlüyü bildirilmişdir.<br>Xarici investorların özəlləşdirmə prosesində daha fəal iştirakının təmin edilməsi məqsədi ilə bir sıra digər istiqamətlərdə də tədbirlər həyata keçirilmişdir. Belə ki, ölkəmizdə özəlləşdirməyə maraq göstərən ABŞ, Fransa, Rusiya, Ukrayna, Çin, Türkiyə, İngiltərə, Hindistan, İran və BƏƏ-dən olan potensial investorlar və onların nümayəndələri ilə komitədə görüşlər keçirilmiş, bir çox hallarda onlara özəlləşdirmə portfelinə daxil olan müəssisələr haqqında ingilis və rus dillərində hazırlanmış məlumatlar təqdim olunmuşdur.<br>Maraq göstərən investorların nümayəndələrinin müəssisələrə |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | baxış keçirməsi təmin olunmuş, müəssisələrin özəlləşdirmə perspektivi və həyata keçirilməsi mümkün olan layihələrin texniki-iqtisadi əsaslandırılması haqqında geniş fikir mübadiləsi aparılmışdır.<br>Yerli və xarici investorlarla əməkdaşlığın genişləndirilməsi, özəlləşdirmə prosesinin təbliği və bu zaman şəffaflığın təmin olunması məqsədilə "Özəlləşdirmə portalı" yaradılmış, onun yerli və xarici investorlar, ictimaiyyət, jurnalistlər, beynəlxalq təşkilatlar və məsləhətçi şirkətlər üçün təqdimatı təşkil edilmişdir.<br>Portalda özəlləşdirilən müəssisələrin foto görüntüləri, ortofoto xəritələri, müəssisə haqqında məlumat, onun qısa SWOT-təhlili, marketinq araşdırması, infrastruktur təminatı, əsas nəqliyyat qovşaqlarına çıxışı, mövcud və potensial bazarlar və s. haqqında məlumatlar öz əksini tapmaqla, potensial investorlarda onlar haqqında əsaslı təəssürat yaratmağa imkan verir.<br>İnvestisiya müsabiqələri vasitəsilə özəlləşdirilməsi nəzərdə tutulan müəssisələrlə yanaşı, digər üsullarla özəlləşdirilməsi planlaşdırılan digər orta və iri müəssisələr barədə də qısa profillər hazırlanaraq, özəlləşdirmə portalında Azərbaycan və ingilis dillərində yerləşdirilmişdir. Belə profillərin mütəmadi şəkildə hazırlanaraq həmin portala yerləşdirilməsi təmin olunur.<br>Buna paralel olaraq, bir sıra yerli və xarici investorlarla, habelə məsləhətçi şirkətlərlə mütəmadi görüşlər keçirilmiş, onların özəlləşdirmədə iştirakı və komitə ilə mümkün əməkdaşlıq imkanları ətrafında müzakirələr aparılmışdır. Özəlləşdirmə prosesinə xarici investorların cəlb edilməsi sahəsində komitə ilə konkret əməkdaşlığa başlanılması məqsədilə dünya reytinqində ilk 20-liyə daxil olan məsləhətçi şirkətlərlə görüşlər keçirilmiş, böyük dördlüyə daxil olan şirkətlərlə uzunmüddətli əməkdaşlığın qurulması ilə bağlı razılıq əldə olunmuşdur. Onlardan bir neçəsi ilə müvafiq anlaşma memorandumları imzalanmışdır. Həmin sənədlərə əsasən, məsləhətçi şirkətlər Azərbaycan Respublikasında həyata keçirilən özəlləşdirmə prosesinə xarici investorların cəlb edilməsi, onlarla işgüzar əlaqələrin qurulması, özəlləşdirmə ilə bağlı investisiya konfrans və forumlarının təşkili, habelə komitənin mütəxəssisləri üçün təlimlərin keçirilməsi sahəsində Komitəyə zəruri dəstəyi göstərəcəklər. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Həyata keçirilən tədbirlərin davamı olaraq, Azərbaycanda fəaliyyət göstərən və ölkəyə yatırılan xarici investisiyanın 80 faizini özündə cəmləşdirən 240 şirkətin üzv olduğu Amerika-Azərbaycan Ticarət Palatası (AMCHAM) ilə əməkdaşlıq əlaqələri qurulmuşdur. Palatanın özəlləşdirmə mövzusuna həsr olunmuş tədbirində komitə sədri özəlləşdirmə prosesi və yeni imkanlar haqqında təqdimatla çıxış etmişdir. Bundan bir müddət sonra, AMCHAM-ın təşkil etdiyi və ABŞ investorlarının qatıldığı daha bir tədbirdə komitə sədrinin müavininin Azərbaycanda özəlləşdirmə mövzusunda təqdimatla çıxışı təşkil edilmişdir.<br>Ötən dövr ərzində Türkiyə Respublikasının İstanbul şəhərində keçirilən V Türkiyə-Azərbaycan-Gürcüstan Biznes Forumunda, habelə Azərbaycanın ABŞ-dakı səfirliyi və ABŞ-Azərbaycan Ticarət Palatasının birgə təşkilatçılığı ilə ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Azərbaycanla ABŞ arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə həsr olunmuş tədbirdə iştirak edilmişdir. Hər iki tədbir çərçivəsində müvafiq sessiyalarda Azərbaycanda həyata keçirilən özəlləşdirmənin qısa tarixi, özəlləşdirmə siyasəti və onun mexanizmləri, özəlləşdirməyə açılmış müəssisələrin fəaliyyəti və onların özəlləşdirilməsinə investisiyaların cəlb edilməsi baxımından dövlət tərəfindən yaradılmış münbit şərait, eləcə də özəlləşdirməyə dair zəruri məlumatların işıqlandırıldığı “Özəlləşdirmə portalı”nın xüsusiyyətləri haqqında ətraflı məlumat verilmişdir.<br>Bununla yanaşı, Azərbaycan-Çexiya, Polşa-Azərbaycan, Litva-Azərbaycan Biznes forumlarında, Azərbaycan-Türkiyə Kənd Təsərrüfatı Biznes forumunda, “Sahibkarlar Günü”nə həsr olunmuş konfransda, “Türkiyə - Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyi (TÜİB)”nin növbəti dönəm “Ümumi Yığıncağının” iclasında iştirak edilmiş, müvafiq təbliğat-təşviqat işləri aparılmış, xarici iş adamlarını maraqlandıra biləcək layihələr haqqında təqdimatlar keçirilmiş, habelə qeyd edilən tədbirlər çərçivəsində iştirakçılara özəlləşdirməyə dair əyani materiallar paylanılmışdır.<br>Özəlləşdirmə prosesinə investorların daha fəal cəlb edilməsi sahəsində əməkdaşlıqla bağlı Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə əməkdaşlıq haqqında memorandumun imzalanması təmin |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | edilmiş, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə yaxın əməkdaşlıq qurulmuş, yerli və xarici biznes forumlarda özəlləşdirmə layihələri təqdim edilmişdir. Xarici investorlarda maraq yarada biləcək özəlləşdirmə layihələri AZPROMO tərəfindən hazırlanan investisiya kataloquna daxil edilmişdir.<br>Yerli sahibkarların özəlləşdirmə prosesi barədə bilgiləndirilməsi, eləcə də onların prosesdə daha fəal iştirakının təmin olunması məqsədilə cari ilin fevral ayında Bakı şəhərində ASK və AZPROMO-nun iştirakı ilə 120-yə yaxın iri yerli holdinq, şirkət, assosiasiya və iş adamının qatıldığı işgüzar forum keçirilmişdir. Forumun gedişində iştirakçılara özəlləşdirmə prosesi barədə müvafiq məlumat kitabçası və bukletlər paylanmış, özəlləşdirməyə açıq olan sahə və müəssisələr barədə təqdimatla çıxış edilmişdir. Digər belə bir tədbir Gəncə şəhərində təşkil olunmuşdur. Həmin tədbirlərin ölkənin bütün regionlarında keçirilməsi nəzərdə tutulur.<br>Yerli sahibkarlara hərracların gedişi, prosedurların şəffaflığı və iştirak qaydalarının sadələşdirilməsi barədə daha geniş məlumatın verilməsi məqsədilə ASK ilə birlikdə 20-dək sahibkarın Əmlak Məsələləri Dövlət Komitəsinin İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzində keçirilən hərraclarda iştirakı təşkil edilmiş, onlara hərracda iştirakı üçün şərait yaradılmışdır.<br>Ötən ilin sonlarında Bakı Expo Mərkəzində keçirilmiş və bu il də keçirilməsi planlaşdırılan daşınmaz əmlak və investisiya sərgisi ilə bağlı zəruri işlər görülmüş, bir sıra şirkətlərin sərgidə iştirakı üçün müzakirələr aparılmış, tədbir çərçivəsində xarici qonaqlar üçün investisiya konfransı təşkil edilmişdir. Builki konfransın daha geniştərkibli olması üçün aidiyyəti strukturlarla birgə iş aparılır. Bu məqsədlə sərgiyə dəvət olunmaq üçün dünyanın bir sıra nüfuzlu investisiya fond və şirkətlərinin siyahısı hazırlanmış, onlara dəvət məktubları göndərilmişdir.<br>Özəlləşdirmə prosesində inkişaf etmiş xarici dövlətlərin təcrübəsindən faydalanmaq, habelə xarici investorların özəlləşdirmə prosesinə daha fəal cəlb edilməsi sahəsində əməkdaşlıq əlaqələrinin qurulması məqsədilə xarici ölkələrin səfirlikləri, Beynəlxalq Maliyyə Korporasiyası və Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndələri ilə |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | özəlləşdirmə sahəsində xarici investisiyaların cəlb olunması istiqamətində əməkdaşlıq imkanları müzakirə edilmişdir<br>Almaniyanın GİZ təşkilatının nümayəndəsi ilə görüş keçirilmiş, özəlləşdirmə prosesi barədə alman investorların məlumatlandırılması və onların ölkəyə cəlb edilməsi barədə fikir mübadiləsi aparılmış, Almaniya Ticarət Palatası ilə özəlləşdirməyə həsr olunmuş ortaq tədbir keçirilməsi barədə razılıq əldə olunmuşdur. |

# Prioritet 3.1. Təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi

**Görülmüş işlər barədə qısa məlumat:**

2016-2017-ci dərs ilində 2795 dövlət ümumtəhsil məktəbində məktəbəhazırlıq qrupları təşkil edilmiş, təhsilalanlar və müəllimlər üçün tədris vəsaitləri hazırlanmış, müəllimlər təlimlərə cəlb edilmişdir. Ümumi təhsil müəssisələrində məktəbəhazırlıq qruplarında çalışan müəllimlərin vəzifə maaşı diaqnostik qiymətləndirmə çərçivəsində 2 dəfə artırılmışdır.

“Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bundan əlavə, “Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartları”nın layihəsi, “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları” sənədinin yekun variantı və “Məktəbəqədər təhsil kurikulumu”nun layihəsi hazırlanmışdır. Məktəbəhazırlıq kurikulumu hazırlanmışdır və hazırda tətbiq edilməkdədir. Təhsil Nazirliyi tərəfindən özəl məktəbəqədər təhsil müəssisələrinin yaradılması və fəaliyyətinin təşviqi ilə əlaqədar tədbirlər həyata keçirilmişdir. Direktorların peşəkarlığının artırılması istiqamətində yeni mexanizmlərin tətbiqinə başlanmışdır.

Azərbaycanda 1-10-cu siniflərdə yeni fənn kurrikulumları tətbiq edilmişdir ki, bu da dünya təcrübəsinə əsaslanan tədris proqramlarını, qiymətləndirmə strategiyalarını özündə ehtiva edir.

Ümumi təhsilin keyfiyyətini yüksəltmək, şagirdlərə seçdikləri ixtisas istiqamətləri üzrə daha yüksək kompetensiyalara yiyələnmək imkanı yaratmaq məqsədilə ötən tədris ilində tam orta təhsil səviyyəsində təmayüllər üzrə təhsilin əhatə dairəsi genişləndirilərək, 182 məktəbi əhatə etmişdir.

İlk peşə-ixtisas təhsili müəssisələrində maddi-texniki bazanın vəziyyətinin öyrənilməsi, mövcud vəziyyətin qiymətləndirilməsi məqsədi ilə Təhsil Nazirliyinin tabeliyində olan 109 peşə təhsili müəssisəsinin (cəzaçəkmə müəssisələrində yerləşən və fəaliyyəti dayandırılan 14 müəssisə çıxılmaqla) 90 faizinə, yəni 86 müəssisəyə baxış keçirilmiş, Qəbələ Peşə Məktəbi və Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi birləşdirilərək, onların bazasında peşə liseyi statusu ilə fəaliyyət göstərən Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi yaradılmışdır. Azərbaycan Respublikasında ilk peşə-ixtisas təhsilinin dövlət standartları layihəsi, eləcə də əmək bazarının tələblərinə uyğun orta ixtisas təhsili pilləsinin yeni dövlət standartlarının layihəsi hazırlanmışdır. Nazirlər Kabinetinin qərarları ilə 5 kollec müvafiq ali təhsil müəssisələrinin nəzdinə verilmişdir. Həmin kolleclərdə 2 illik subbakalavr təhsilinin təşkili üzrə tədbirlər həyata keçirilməkdədir.

Cari ilin 5-6 iyun tarixlərində Təhsil Nazirliyi, AMEA və Avropa Komissiyasının birgə təşkilatçılığı ilə ali təhsil müəssisələri və elmi təşkilatların əməkdaşları üçün “Təhsil-Elm-Start up üçqat spiral modeli” mövzusunda TAİEX seminarı keçirilmişdir. “Thomson Reuters” şirkətinin əməkdaşları ali təhsil müəssisələrində seminarlar və treninqlər keçirmişdir. “Ali təhsil müəssisələrinə tədqiqat universiteti statusu verilməsi üçün Tələblər”in layihəsi hazırlanmış və təsdiq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir.

Bundan əlavə, “Elmi fəaliyyətin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası”nın layihəsi hazırlanmış və təsdiq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir. 14 iyun 2017-ci il tarixində Nazirlər Kabineti tərəfindən "Təhsildə inkişaf və innovasiyalar üzrə qrantların məbləği və ayrılması şərtləri, o cümlədən vəsaitlərin verilmə prosedurları, monitorinqin aparılması, hesabat və qiymətləndirmə üzrə tələblər"in təsdiq edilməsi haqqında” 258 nömrəli qərar qəbul edilmişdir.

Təhsil müəssisələrinin fiziki və texnoloji infrastrukturunun təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülmüşdür. 71 məktəb tikilib istifadəyə verilmiş, 12 məktəb əsaslı, 460-dan çox məktəb cari təmir edilmiş, o cümlədən Təhsil Nazirliyinin sifarişinə əsasən regionlarda tutumu 100 şagirdə qədər olan qəzalı məktəblərin modul tipli məktəblərlə əvəz edilməsi prosesi çərçivəsində 60 modul tipli məktəb quraşdırılmışdır. Ümumtəhsil məktəblərinin İKT avadanlığı ilə təchizatı istiqamətində işlər davam etdirilmiş, “Elektron təlimləndirən sistemlər” layihəsi çərçivəsində ölkə üzrə 210 sağlamlıq imkanları məhdud uşaq distant təhsilə cəlb edilmişdir.

**Problemlər:**

**1. Məktəbəqədər təhsilin inkişafı istiqamətində dövlət proqramının hazırlanması nəzərdə tutulsa da, yalnız məktəbəhazırlıq məsələləri ilə bağlı dövlət proqramı hazırlanmışdır. Məktəbəqədər təhsildə əsas çətinliklərdən biri də motivasiyalı əməkhaqqı sisteminin tətbiq olunmamasıdır.**

**2. Peşə təhsilinin inkişafı istiqamətində müəyyən addımlar atılsa da, özəl sektorun peşə təhsili müəssisələri ilə tərəfdaşlığa cəlb edilməsi istiqamətində işlər sürətli şəkildə getmir.**

**Tövsiyələr:**

*1. Yüksəkixtisaslı pedaqoqların hazırlanması istiqamətində işlər sürətləndirilə və məktəbəqədər təhsilin inkişafı istiqamətində dövlət proqramı hazırlana bilər.*

*2. Pilot peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında tərəfdaşlığa mane olan amillər dəqiq müəyyənləşdirilə və maraqlı olan işəgötürənlərlə əməkdaşlıq qurula bilər.*

*3. İnkişaf və tədqiqat sahələrinə özəl sektorun investisiya qoyması üçün stimullaşdırıcı tədbirlərin keçirilməsi (Rusiya, Belarusiya təcrübəsi öyrənilə bilər) və yüksək texnologiyalar parklarının fəaliyyətinin səmərəli təşkili istiqamətində aidiyyəti qurumlarla birgə iş planının hazırlanması istiqamətində iş aparıla bilər.*

*4. Təhsil işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində aidiyyəti dövlət qurumları ilə iş aparıla bilər.*

| | | |
|---|---|---|
| İcra edilmişdir | 7 tədbirdən 4-ü | **57%** |
| İcrasına başlanılmışdır | 7 tədbirdən 3-ü | **43%** |
| İcrasına başlanılmamışdır | – | **0%** |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə | Əlaqələndirici qurum tərəfindən təqdim edilmiş məlumatlar |
|---|---|---|---|---|---|
| 3.1.1. Məktəbəqədər təhsillə əhatəolunma səviyyəsinin yüksəldilməsi və təlim-tərbiyə texnologiyalarının təkmilləşdirilməsi | Təhsil Nazirliyi | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2017-2020 | ☒ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | 2016-2017-ci dərs ilində respublikanın bütün regionları əhatə olunmaqla, 2795 dövlət ümumtəhsil məktəbində dövlət büdcəsinin vəsaiti hesabına məktəbəhazırlıq qrupları təşkil edilmişdir. Bu qruplara 86970 uşaq cəlb olunmuşdur ki, bu da 5 yaşlı uşaqların 55 faizini təşkil edir. Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlar üçün 4 adda, müəllimlər üçün 1 adda tədris vəsaiti hazırlanmış və yerlərə çatdırılmışdır. Məktəbəhazırlıq qrupları üçün əlavə olaraq 2 adda yeni tədris vəsaiti hazırlanmışdır.<br>Təhsil Nazirliyinin əməkdaşları və təhsil mütəxəssisləri Milli Məclisdə yaradılmış işçi qrupun tərkibində "Məktəbəqədər təhsil haqqında" qanun layihəsinin hazırlanmasında iştirak etmişdir. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu 2017-ci ildə qəbul edilmişdir. Qanunun tətbiqi ilə əlaqədar qanunvericilik aktlarında dəyişikliklər edilməsi barədə Təhsil Nazirliyi tərəfindən təkliflər hazırlanmış və Ədliyyə Nazirliyinə təqdim edilmişdir.<br>Məktəbəqədər təhsil üzrə ixtisaslı mütəxəssislər hazırda pedaqoji profilli ali və orta ixtisas təhsili müəssisələrində – Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun 4 filialında, Bakı Dövlət Universitetinin Qazax filialında, Bakı Slavyan Universitetində, Naxçıvan Müəllimlər İnstitutunda, Gəncə Dövlət Universitetində, Sumqayıt Dövlət Universitetində, Mingəçevir Dövlət Universitetində, Lənkəran Dövlət Universitetində və Bakı Qızlar Universitetində hazırlanır. Bununla yanaşı, pedaqoji profilli ali təhsil müəssisələrində yenidənhazırlanma yolu ilə də məktəbəqədər təhsil üzrə kadr hazırlığı aparılır.<br>Məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçilərin peşəkarlığının artırılması istiqamətində təlimlər təşkil edilir. Belə ki, 2017-2018-ci tədris ilində məktəbəhazırlıq qruplarında işləyəcək müəllimlər təlimlərə cəlb edilmişlər. 4200 nəfər müəllimin təlimlərdə iştirakı planlaşdırılır. "Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası" mövzusunda keçirilən ixtisasartırma təlimlərinin iştirakçı vəsaiti təkmilləşdirilərək, Azərbaycan və rus dillərində hazırlanmışdır.<br>Ümumi təhsil müəssisələrində məktəbəhazırlıq qruplarında çalışan müəllimlərin vəzifə maaşı diaqnostik qiymətləndirmə çərçivəsində 2 dəfə artırılmışdır.<br>Təhsil Nazirliyi tərəfindən özəl məktəbəqədər təhsil |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | müəssisələrinin yaradılması və fəaliyyətinin təşviqi ilə əlaqədar tədbirlər həyata keçirilmişdir. Nəticədə özəl məktəbəqədər təhsil müəssisələri şəbəkəsi genişlənməkdədir. Hazırda 87 özəl məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. 2017-ci ilin birinci yarımilində İqtisadiyyat Nazirliyi tərəfindən 17 məktəbəqədər təhsil müəssisəsinin fəaliyyətinə lisenziya verilməsi ilə bağlı rəy bildirilməsi üçün nazirliyə müraciət edilmiş və Təhsil Nazirliyinin müvafiq ekspert qrupları İqtisadiyyat Nazirliyinin nümayəndəsi ilə birlikdə müəssisələrə baxış keçirmişlər. Ekspert qrupları tərəfindən 12 məktəbəqədər təhsil müəssisəsi barədə müsbət rəy verilmişdir.<br>2017-2018-ci dərs ilində ümumtəhsil məktəblərində yaradılacaq məktəbəhazırlıq qruplarına 5 yaşlı uşaqların 65 faizinin cəlbi nəzərdə tutulmuşdur. “2017-2018-ci dərs ilində dövlət ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarının təşkili barədə” Təhsil Nazirliyinin 2017-ci il 4 aprel tarixli 184 nömrəli əmrinin icrasını təmin etmək məqsədilə 2017-2018-ci dərs ilində məktəbəhazırlıq qruplarına cəlb olunacaq 2012-ci il təvəllüdlü 5 yaşlı uşaqların sayı, ərazilər üzrə məktəbəhazırlıq təhsili təşkil ediləcək məktəblər və tədris aparacaq müəllimlər müəyyənləşdirilmişdir.<br>“Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartları”nın layihəsi Təhsil Nazirliyinin 05.04.2017-ci il tarixli 01-14-119/14 nömrəli məktubu ilə Nazirlər Kabinetinə təqdim edilmişdir.<br>“Məktəbəqədər təhsil kurrikulumu”nun layihəsi hazırlanmışdır. Məktəbəhazırlıq kurikulumu hazırlanmışdır və hazırda tətbiq edilməkdədir. |
| 3.1.2. Ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi və təmayülləşmənin inkişaf etdirilməsi | Təhsil Nazirliyi | Azərbaycan Milli Elmlər Akademiyası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2017-2019 | ☒ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları” sənədinin yekun variantı hazırlanmışdır.<br>Məktəbəsaslı ixtisasartırma modelinin pilot tətbiqi istəqamətində tədbirlər həyata keçirilir. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunda “Təməl” təlim-resurs mərkəzi, 2 məktəb və bir institutda “İngilis dili resurs mərkəzi” yaradılmışdır.<br>“Həmkara dəstək” layihəsi çərçivəsində diaqnostik qiymətləndirmədə ixtisası üzrə 35-40 bal toplamış müəllimlər ixtisas üzrə nəticələri 20 baldan aşağı olan müəllimlərə təlimlər keçmişlər. Təlimlərə 1800-ə yaxın müəllim cəlb edilmiş, 116 nəfər müəllim könüllü olaraq təlimçi kimi iştirak etmişdir.<br>Təhsilvermə və təhsilalma metodlarının təkmilləşdirilməsi |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | istiqamətində təlimlərin səmərəli və peşəkar səviyyədə aparılmasını təmin etmək məqsədilə Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu (TİPİİ) tərəfindən fənn kurikulumlarının tətbiqi, fənlərin interaktiv tədrisi, sinfin idarəolunması, tədris resurslarının hazırlanması və müasir (fəal) dərsdə tətbiqi, prometan lövhələrlə təlimin təşkili mövzularında ümumilikdə 7 min nəfər müəllim üçün ixtisasartırma təlimləri təşkil edilmiş və onlar TİPİİ-də yekun qiymətləndirmədən keçmişdir. YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin dəstəyi ilə Sinqapurun Milli Təhsil İnstitutu tərəfindən təlimçilər dəvət olunaraq, məktəb direktorları və müəllimlərə təlimlər keçilmişdir.<br>Azərbaycanda 1-10-cu siniflərdə yeni fənn kurikulumları tətbiq edilmişdir ki, bu da dünya təcrübəsinə əsaslanan tədris proqramlarını və qiymətləndirmə strategiyalarını özündə ehtiva edir.<br>Direktorların peşəkarlığının artırılması istiqamətində yeni mexanizmlərin tətbiqinə başlanılmışdır. Belə ki, ümumi təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, peşəkar kompetensiyalara və idarəetmə bacarıqlarına malik menecerlərin hazırlanması və ümumtəhsil məktəblərinə rəhbər vəzifələrə təyin edilməsi istiqamətində Bakı şəhərində məktəb direktorları və gələcəkdə bu vəzifədə çalışmaq arzusunda olan pedaqoji kadrların peşəkarlıq səviyyəsinin artırılması üzrə yeni mexanizmin tətbiqi davam etdirilmiş, vakant direktor vəzifələrinə namizədlərin müəyyənləşdirilməsi məqsədilə 300-dək namizədin yekun qiymətləndirilməsi həyata keçirilmişdir.<br>Cari ilin mart ayında ümumi təhsil müəssisələrinə direktorların işə qəbulu üzrə mərkəzləşdirilmiş müsabiqəyə başlanmış, 4 mərhələdən ibarət olan müsabiqəyə 670 vakant yer çıxarılmış, 1914 nəfər namizəd müsabiqədə iştirak etmək üçün elektron ərizə vermiş, müsabiqənin test imtahanı mərhələsi keçirilmişdir. Hazırda müsahibə mərhələsinin keçirilməsinə hazırlıq işləri görülür.<br>Müəllimlərin sosial müdafiəsi, müəllimlik peşəsinin ictimai nüfuzunun yüksəldilməsi, yüksək bilikli və hazırlıqlı insanların bu peşəni seçməsinə stimul yaradılması istiqamətində işlər davam etdirilmiş, “Müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında” ölkə Prezidentinin Sərəncamına əsasən ötən ilin noyabr-dekabr aylarında |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | diaqnostik qiymətləndirmədən keçmiş 40 minədək müəllimin əməkhaqqı 2017-ci ilin yanvar ayından artırılmış, əməkhaqqı əhəmiyyətli şəkildə artırılmış müəllimlərinin sayı 100 minə (bütün müəllimlərin 70 faizi) çatmışdır.<br>Cari ilin aprel-may aylarında 26 şəhər və rayonda daha 49 min müəllimin bilik və bacarıqları qiymətləndirilmişdir. Onların əməkhaqqı 2018-ci ilin yanvar ayından artırılacaqdır. Beləliklə, ölkə üzrə bütün müəllimlərin (149 minədək) diaqnostik qiymətləndirilməsi başa çatmışdır. Hazırda diaqnostik qiymətləndirmədən keçmiş müəllimlərin orta aylıq əməkhaqqı 465 manat təşkil edir.<br>Nazirlər Kabinetinin qərarına əsasən, kənd məktəblərində işləyən müəllimlərin fəaliyyətinin stimullaşdırılması məqsədilə onlara kirayə haqqını və kommunal xidmətlərin haqqını ödəmək üçün kompensasiya (ayda 60 manat) və əməkhaqqına əlavə (ayda 100 manat) ödənilir.<br>Ümumi təhsilin səviyyələri üzrə nümunəvi fənn kurikulumlarının hazırlanması məqsədilə Təhsil Nazirliyinin 26.12.2016-cı il tarixli əmri ilə hər bir fənn üzrə işçi qrup yaradılmış və fənn kurikulumlarının hazırlanmasına başlanmışdır. I-IX siniflər üzrə nümunəvi fənn kurikulumlarının bir hissəsi kimi məzmun standartlarının ilkin variantı hazırlanmışdır.<br>Ümumi təhsilin keyfiyyətini yüksəltmək, şagirdlərə seçdikləri ixtisas istiqamətləri üzrə daha yüksək kompetensiyalara yiyələnmək imkanı yaratmaq məqsədilə ötən tədris ilində tam orta təhsil səviyyəsində təmayüllər üzrə təhsilin əhatə dairəsi genişləndirilmişdir, 182 məktəbi əhatə etmişdir. Tam orta təhsil səviyyəsində təmayülləşmənin tətbiqinə kütləvi keçidlə əlaqədar yerli təhsili idarəetmə orqanları ilə birlikdə müvafiq təhlillər aparılmış, təşkilati tədbirlər görülmüşdür. "Tam orta təhsil səviyyəsində təmayülləşmənin tətbiqi ilə bağlı həyata keçirilmiş tədbirlər barədə" nazirliyin 2017-ci il 5 aprel tarixli 186 nömrəli əmri olmuşdur. 2017-2018-ci tədris ilindən bütün məktəblərdə tam orta təhsil səviyyəsində təmayülləşmə tətbiq ediləcəkdir.<br>Tam orta təhsil səviyyəsində təhsilin təmayüllər üzrə təşkil olunduğu ümumi təhsil müəssisələrində təhsil prosesinin təşkilini və tənzimlənməsini təmin etmək məqsədilə 2017/2018-ci dərs ili üçün tədris planları hazırlanmış, Azərbaycan Respublikası təhsil nazirinin 04.08.2017-ci il |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | tarixli 240 nömrəli əmri ilə təsdiq edilmişdir.<br>Təmayül fənləri üçün fənn proqramlarının təkmilləşdirilməsi ilə bağlı işçi qruplar yaradılmışdır. Hazırda bu istiqamətdə iş aparılır.<br>2017-ci ildə bütün mənbələr hesabına 71 məktəb tikilib istifadəyə verilmiş, 12 məktəb əsaslı, 460-dan çox məktəb cari təmir edilmiş, o cümlədən Təhsil Nazirliyinin sifarişinə əsasən, regionlarda tutumu 100 şagirdə qədər olan qəzalı məktəblərin modul tipli məktəblərlə əvəz edilməsi prosesi çərçivəsində 60 modul tipli məktəb quraşdırılmışdır. Cari ilin sonunadək istifadəyə veriləcək modul tipli məktəblərin sayı 100-ü ötəcəkdir. Hazırda 24 obyektdə tikinti və əsaslı təmir işləri davam etdirilir. |
| 3.1.3. İlk peşə və orta ixtisas təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılması | Təhsil Nazirliyi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2017-2018 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | İşəgötürənlərin sifarişləri əsasında ilk peşə-ixtisas təhsili müəssisələrinin şagird qəbuluna dair proqnozlarına əsasən, 2017/2018-ci tədris ili üçün şagird qəbulu planı hazırlanaraq, təsdiq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir.<br>Ötən tədris ilində adları təsnifata yeni əlavə edilmiş 15 ixtisas və adları təsnifatda olub hazırlığına yeni başlanan 10 ixtisas üzrə şagird qəbulu planı müəyyən edilmişdir. Növbəti tədris ilində isə adları təsnifatda olub hazırlığına yeni başlanılacaq 22 ixtisas üzrə şagird qəbulu nəzərdə tutulmuşdur. Nəticədə, 2015/2016-cı tədris ilində 123, 2016/2017-ci tədris ilində 154 ixtisas üzrə şagird qəbulu planlaşdırıldığı halda, növbəti tədris ilində əmək bazarının dəyişən tələbatını daha dolğun nəzərə alaraq, 175 ixtisas üzrə şagird qəbulunun həyata keçirilməsi nəzərdə tutulmuşdur. Şəffaflığın, obyektivliyin və qəbul prosesində vətəndaşların rahatlığının təmini məqsədilə şagird qəbulu prosesi “ASAN xidmət” mərkəzlərində həyata keçiriləcəkdir.<br>İlk peşə-ixtisas təhsili müəssisələrində maddi-texniki bazanın vəziyyətinin öyrənilməsi, mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə Təhsil Nazirliyinin tabeliyində olan 109 peşə təhsili müəssisəsinin (cəzaçəkmə müəssisələrində yerləşən və fəaliyyəti dayandırılan 14 müəssisəni çıxmaqla) 90 faizinə, yəni 86 müəssisəyə baxış keçirilmiş, ilin sonuna kimi yerdə qalan müəssisələrə baxışın keçirilməsinin yekunlaşması nəzərdə tutulmuşdur.<br>İlk peşə-ixtisas təhsili müəssisələrinin rasionallaşdırılması və optimallaşdırılması istiqamətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 5 iyun tarixli 250 nömrəli qərarı |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | ilə Qəbələ Peşə Məktəbi və Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi birləşdirilərək onların bazasında peşə liseyi statusu ilə fəaliyyət göstərən Qəbələ Dövlət Peşə Təhsili Mərkəzi yaradılmışdır.<br>İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması mexanizminin hazırlanması məqsədilə işçi qrup yaradılmış, bu sahədə beynəlxalq təcrübələr öyrənilmiş, səriştələrin tanınması mexanizminə dair təkliflər paketi hazırlanaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmışdır.<br>Azərbaycan Respublikasında ilk peşə-ixtisas təhsilinin dövlət standartlarının layihəsi hazırlanmış və Təhsil Nazirliyinin internet səhifəsində yerləşdirilərək ictimai müzakirəyə çıxarılmışdır.<br>Əmək bazarının tələblərinə uyğun orta ixtisas təhsili pilləsinin yeni dövlət standartlarının layihəsi hazırlanmış və hazırda müzakirə olunmaqdadır.<br>Cari ilin 21 aprel – 27 may tarixlərində ilk-peşə ixtisas təhsili müəssisələrində çalışan ümumtəhsil fənn müəllimlərinin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi keçirilmiş, ixtisas fənləri müəllimlərinin qiymətləndirilməsi üçün məzmun və materiallar hazırlanmışdır. Ümumilikdə, diaqnostik qiymətləndirmə ilə bağlı imtahanlarda 86 ilk peşə-ixtisas təhsili müəssisəsindən 834 nəfər ümumtəhsil fənləri müəllimi iştirak etmiş, müəllimlərin 50 faizinin (418 nəfər) nəticələri qənaətbəxş olmuşdur.<br>Azərbaycan Respublikası təhsil nazirinin 23.06.2017-ci il tarixli 157 nömrəli əmri ilə “Peşə təhsili sisteminə ixtisaslı yeni mütəxəssislərin cəlb edilməsi” prioritet istiqamətinin tədbirlərinin icrasının təmin edilməsi üzrə işçi qrup yaradılmışdır. Pilot peşə təhsili və təlimi müəssisələrinə prioritet ixtisaslar üzrə yüksək peşəkarlığa malik istehsalat təlimi ustalarının və pedaqoji heyətin cəlb olunması üçün meyarların hazırlanması prosesinə başlanılmış, bu məqsədlə “Gilan Holdinq”, “MİDA” və “ABAD”-la danışıqlar prosesinə start verilmişdir. Təhsil Nazirliyi sisteminə daxil olan təhsil müəssisələrinə müddətsiz müqavilə ilə ixtisaslı müəllim kadrların işə qəbuluna başlanılmışdır. Müəllimlərin işə qəbul imtahanlarında uğur qazanan gənc namizədlərin vakant ümumtəhsil fənn müəllimi kimi ilk peşə-ixtisas təhsili müəssisələrinə cəlb edilməsi nəzərdə tutulur. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Nazirlər Kabinetinin qərarları ilə 5 kollec müvafiq ali təhsil müəssisələrinin tabeliyinə verilmişdir. Həmin kolleclərdə 2 illik subbakalavr təhsilinin təşkili üzrə tədbirlər həyata keçirilməkdədir. |
| 3.1.4. Ali təhsil müəssisələrində “təhsil-tədqiqat-innovasiya” formatında inkişafın təşviqi | Təhsil Nazirliyi | Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat Nazirliyi | 2017-2018 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Cari ilin 5-6 iyun tarixlərində Təhsil Nazirliyi, AMEA və Avropa Komissiyasının birgə təşkilatçılığı ilə ali təhsil müəssisələri və elmi təşkilatların əməkdaşları üçün “Təhsil-Elm-Start up üçqat spiral modeli” mövzusunda TAİEX seminarı keçirilmişdir. Seminarda Avropa İttifaqının ekspertləri seminar iştirakçılarını qabaqcıl ölkələrin təcrübəsi ilə tanış etmişlər.<br>“Ali təhsil müəssisələrinə tədqiqat universiteti statusu verilməsi üçün Tələblər”in layihəsi hazırlanmış və təsdiq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir.<br>“Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində və AMEA-nın magistratura səviyyəsində tədrisin kredit sistemi ilə təşkili Qaydaları”nda müvafiq dəyişikliklər edilmişdir.<br>Ali təhsil müəssisələrinin akkreditasiyası ilə bağlı yeni qaydaların layihəsi hazırlanmışdır.<br>BDU, ADU, BMU-ya yeni hüquqi status (publik hüquqi şəxs) verilmişdir. Bu status həmin ali təhsil müəssisələrində korporativ idarəetmə mexanizminin yaradılmasına imkan verir. Ali təhsil müəssisələrinin beynəlmiləlləşməsi istiqamətində işlər həyata keçirilir (pilot statuslu universitet statusunun verilməsi).<br>Hazırda ixtisas təsnifatı hazırlanır və ilin sonuna qədər hökumətə təqdim olunacaqdır.<br>Uzunmüddətli proqnozlaşdırma mexanizminin hazırlanması istiqamətində iş aparılır.<br>Ali təhsildə diferensiallaşdırılmış əməkhaqqı və stimullaşdırma sistemi bir sıra ali təhsil müəssisələrində tətbiq edilir (ADNSU, ADİU, AzMİU və s.).<br>Əməkhaqqının saathesabı qaydasında ödənilməsi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarında müvafiq dəyişikliklər edilmişdir.<br>İxtisaslaşdırılmış universitetlərdə klasterlərin yaradılması imkanları araşdırılır. Orta ixtisas təhsili müəssisələrinin ixtisaslaşdırılmış ali təhsil müəssisələrinin tabeliyinə verilməsi prosesinə başlanılmış, artıq 5 kollec müvafiq ali təhsil müəssisələrinə verilmişdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Özəl ali təhsil müəssisələrinə dövlət sifarişi yerlərinin ayrılmasına başlanılmışdır. Özəl ali təhsil müəssisələrinin fəaliyyətinə lisenziyaların "ASAN xidmət" tərəfindən müddətsiz olaraq verilməsi təmin edilmişdir. |
| 3.1.5. Elmi-tədqiqat fəaliyyətinin inkişafı və biliklərə əsaslanan cəmiyyət quruculuğunun dəstəklənməsi | Azərbaycan Milli Elmlər Akademiyası | Təhsil Nazirliyi | 2017-2020 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | "Elmi fəaliyyətin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası"nın layihəsi hazırlanmış və təsdiq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir.<br>Ali təhsil müəssisələrində innovativ elmi istiqamətlərin inkişaf etdirilməsi və bu prosesdə tələbələrin, magistrantların və gənc tədqiqatçıların fəal iştirakının təmin edilməsi, eləcə də doktorant və dissertantlara inkişaf etmiş xarici ölkələrdən elmi rəhbər və ya məsləhətçinin təyini təcrübəsinin genişləndirilməsi istiqamətində iş aparılır.<br>Professor-müəllim heyətinin tədrislə yanaşı, elmi tədqiqat fəaliyyətinin inkişaf etdirilməsi onların müsabiqə yolu ilə seçkili vəzifələr tutmasında mühüm amilə çevrilmişdir. Belə ki, ADNSU-da impakt faktorlu "Clarivate Analytics" və "Scopus" seriyalı jurnallarda nəşr olunmuş elmi məqalələr onlara əlavə bal qazandırır və vəzifə maaşlarına 40%-dək əlavə əməkhaqqı almaq imkanı yaradır. Universitetdə yaradılmış mühit təhsilalanların bir-birindən yalnız biliyinə görə fərqlənməsinə imkan yaratmışdır.<br>Cari ilin 29 iyun tarixində Müəllif Hüquqları Agentliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı ilə birgə "Universitet və elmi tədqiqat institutlarında əqli mülkiyyət siyasəti" mövzusunda beynəlxalq seminar keçirilmişdir. Tədbirdə ali təhsil müəssisələrinin rəhbərləri və nümayəndələri iştirak etmişlər. Eyni zamanda "Universitet və elmi tədqiqat institutlarında əqli mülkiyyət siyasəti üçün Milli Layihə"nin icrası məqsədilə adları qeyd olunan qurumların və ali təhsil müəssisələrinin nümayəndələrindən təşkil olunmuş işçi qrup formalaşdırılmışdır. Sözügedən Milli Layihənin icrası, universitetlərdə əqli mülkiyyət hüququnun təmin edilməsi və qorunması, eləcə də bu sahədə qarşıda duran problemləri müzakirə etmək məqsədilə 2017-ci ilin 20 iyun tarixində işçi qrupun görüşü keçirilmişdir.<br>Son dövrlərdə həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan ali təhsil müəssisələrinin impakt faktorlu jurnallarda çap olunmuş məqalələri ötən ilə nisbətən 40 faiz |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | artaraq 350-ə çatmışdır.<br>“Thomson Reuters” şirkətinin əməkdaşları ali təhsil müəssisələrində seminarlar və treninqlər keçirmişdir. “Thomson Reuters” şirkətinin resurslarından aktiv istifadəni təmin etmək üçün Bakı, Gəncə və Naxçıvan şəhərlərində 2000 nəfərin iştirakı ilə 42 təlim keçirilmişdir. Təlimlər zamanı universitetlərin professor-müəllim heyəti “Web of Science” və onunla əlaqəli resurslarla işləmək bacarığı, platformada axtarışın effektiv aparılması, ən nüfuzlu jurnalların və yüksək istinadlı məqalələrin axtarılıb tapılması, platformada qeydiyyatdan keçmək və s. məsələlərlə bağlı ümumi məlumatlar əldə etmişlər. BDU, ADNSU və ADİU-da “Web of Science” Sertifikasiya Proqramı həyata keçirilmiş və 65-ə yaxın proqram iştirakçısı öz universitetlərində elmi bazadan istifadə ilə bağlı təlim keçmək və kiçik konsultasiyalar etmək hüququ qazanmışdır.<br>İnnovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə ali təhsil müəssisələrində professor-müəllim heyəti üçün seminar və treninqlərin proqramı hazırlanmışdır.<br>Bakı Mühəndislik Universitetində nəzəri bilikləri praktiki fəaliyyətdə tətbiq etməyə imkan verən laboratoriyalar yaradılmış, auditoriyalar müasir elektron tədris vəsaitləri ilə təchiz edilmişdir.<br>Professor-müəllim heyətinə innovativ təlim metodları və texnologiyaların aşılanması məqsədilə Azərbaycan Dövlət Pedaqoji Universitetində “Ali məktəb müəllimlərinin I forumu”, “Fənlərin tədrisi problemləri: reallıqlar və perspektivlər” mövzusunda elmi-praktik konfrans keçirilmişdir.<br>Müvafiq seminarlar Bakı Slavyan Universitetində, Azərbaycan Dillər Universitetində, Bakı Dövlət Universitetində də keçirilmişdir.<br>Təhsil sistemində innovativ fəaliyyəti stimullaşdıran qrant sisteminin yaradılması və tətbiqi ilə əlaqədar Təhsil Nazirliyi tərəfindən qrant layihəsi hazırlanmış və Nazirlər Kabinetinə təqdim edilmişdir.<br>14 iyun 2017-ci il tarixində Nazirlər Kabineti tərəfindən “Təhsildə inkişaf və innovasiyalar üzrə qrantların məbləği və ayrılması şərtləri, o cümlədən vəsaitlərin verilmə prosedurları, monitorinqin aparılması, hesabat və qiymətləndirmə üzrə tələblər”in təsdiq edilməsi haqqında” |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | 258 nömrəli qərar qəbul edilmişdir.<br>Qərar məzmun, tədris və qiymətləndirmə ilə bağlı müxtəlif innovativ ideyaların sınaqdan keçirilməsinə, müsbət təcrübələrin müəyyənləşdirilməsinə, əldə olunan nailiyyətlərin təhsil islahatlarında nəzərə alınmasına imkan verəcəkdir.<br>Təhsil Nazirliyi tərəfindən 2017-ci ilin birinci yarısında 21 ədəd multimedia məzmunlu videodərs və 29 ədəd qiymətləndirmə sistemli videodərs hazırlanaraq, www.video.edu.az portalında yerləşdirilmişdir. e-resurs.edu.az, e-derslik.edu.az, e-sinif.edu.az, e-telim.edu.az, e-test.edu.az, imtahan.edu.az, i-olimp.edu.az elektron portallarından istifadə imkanları genişləndirilmiş, portallarda müxtəlif fənlər üzrə elektron resurslar yerləşdirilərək, müəllimlərin və şagirdlərin istifadəsinə verilmişdir. |
| 3.1.6. İnnovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsi | Təhsil Nazirliyi | Azərbaycan Milli Elmlər Akademiyası, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2017-2018 | ☒ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Təhsil sistemində innovativ fəaliyyəti stimullaşdıran qrant sisteminin yaradılması və tətbiqi ilə əlaqədar Təhsil Nazirliyi tərəfindən qrant layihəsi hazırlanmış və Nazirlər Kabinetinə təqdim edilmişdir.<br>2017-ci il 14 iyun tarixində Nazirlər Kabineti tərəfindən "Təhsildə inkişaf və innovasiyalar üzrə qrantların məbləği və ayrılması şərtləri, o cümlədən vəsaitlərin verilmə prosedurları, monitorinqin aparılması, hesabat və qiymətləndirmə üzrə tələblər"in təsdiq edilməsi haqqında" 258 nömrəli qərar qəbul edilmişdir.<br>Qərar məzmun, tədris və qiymətləndirmə ilə bağlı müxtəlif innovativ ideyaların sınaqdan keçirilməsinə, müsbət təcrübələrin müəyyənləşdirilməsinə, əldə olunan nailiyyətlərin təhsil islahatlarında nəzərə alınmasına imkan verəcəkdir.<br>Pedaqoji heyət üçün modul-kredit və rəqabətəsaslı təlimlər sistemi tətbiq edilir.<br>İnnovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə ali təhsil müəssisələrində professor-müəllim heyəti üçün seminar və treninqlərin proqramı hazırlanmışdır. Bakı Mühəndislik Universitetində nəzəri bilikləri praktiki fəaliyyətdə tətbiq etməyə imkan verən laboratoriyalar yaradılmış, auditoriyalar müasir elektron tədris vəsaitləri ilə təchiz edilmişdir.<br>Aşağıda göstərilən ali təhsil müəssisələrində əlavə təhsil |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | strukturları fəaliyyət göstərir: BDU, ADPU, BSU, ADNSU, ADİU, ADU, GDU, LDU və sair.<br>Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu (TİPİİ) tərəfindən ixtisasartırma təhsilinin nəticələrinin qiymətləndirilməsi və stimullaşdırılması mexanizmi hazırlanmışdır və tətbiq edilir. Bununla əlaqədar, qiymətləndirmə vasitələri hazırlanmış, qiymətləndirməni həyata keçirən mütəxəssislər üçün təlimlər təşkil edilmişdir. Cari ildə ixtisasartırma təhsilinə cəlb olunmuş 7 min müəllimin ixtisasartırma təhsilinin nəticələrinin yekun qiymətləndirilməsi aparılmışdır.<br>Təhsil Nazirliyi tərəfindən e-resurs.edu.az, e-derslik.edu.az, e-sinif.edu.az, e-telim.edu.az, e-test.edu.az, imtahan.edu.az, i-olimp.edu.az elektron portallarından istifadə imkanları genişləndirilmiş, portallarda müxtəlif fənlər üzrə elektron resurslar yerləşdirilərək, müəllimlərin və şagirdlərin istifadəsinə verilmişdir. |
| 3.1.7. İnsan kapitalının inkişafında iştirak edən fiziki və texnoloji infrastrukturun təkmilləşdirilməsi | Təhsil Nazirliyi | Azərbaycan Milli Elmlər Akademiyası, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2017-2019 | ☒ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində UFAZ universiteti üçün tədris korpusunun əsaslı təmiri, yeni laboratoriyaların tikintisi və təchizatı həyata keçirilmişdir.<br>AMEA-nın Ümumi Yığıncağı və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2016-cı il 21 dekabr tarixli birgə iclasında “Elm və təhsilin inteqrasiyası üzrə AMEA-nın və Təhsil Nazirliyinin birgə Fəaliyyət Planı” təsdiq edilmişdir. Tədbirlər Planında 2-ci və 3-cü altbəndlərdə qeyd edilən məsələlər öz əksini tapmışdır və hazırda bu istiqamətdə işlər aparılır.<br>Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq Sazişi çərçivəsində ümumtəhsil məktəblərinin İKT avadanlığı ilə təchizatı istiqamətində 20880 ədəd noutbuk, 789 ədəd elektron lövhə, 789 ədəd proyektor və 20 ədəd masaüstü kompüter avadanlığı Təhsil Nazirliyinə çatdırılmışdır. Hazırda avadanlıqların bölgüsü üzərində iş aparılır.<br>“Elektron təlimləndirən sistemlər” layihəsi çərçivəsində ölkə üzrə sağlamlıq imkanları məhdud 210 nəfər uşaq distant təhsilə cəlb edilmişdir.<br>Təhsil sahəsində robot texnologiyası məhsullarından istifadə layihəsi çərçivəsində 5 ümumi təhsil müəssisəsinə (Fizika-riyaziyyat və informatika təmayüllü lisey, Bakı Avropa liseyi, 132-134 nömrəli təhsil kompleksi, 6 nömrəli məktəb-lisey və “Ankara məktəbi” məktəb-liseyi) 55 ədəd “Lego Education” |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | və 30 ədəd "EMo RoAlka knight" robotları paylanmışdır.<br>Cari ildə 34 təhsil müəssisəsi (4 təhsil müəssisəsi fiberoptik, 25 ADSL və 5 təhsil müəssisəsi 3G vasitəsilə) Azərbaycan Təhsil Şəbəkəsinə qoşulmuşdur. Beləliklə, ölkə üzrə 2205 ümumi təhsil müəssisəsi (49 faiz) intrenet və internet şəbəkələrinə çıxışla təmin edimişdir. Eyni zamanda 13 təhsil müəssisəsinin internetə qoşulma növü təkmilləşdirilmişdir.<br>Orta məktəblərdə kitabxanalar kompüterlə təmin edilmiş, elektron kataloq sistemi yaradılmışdır.<br>Gənclərin yaradıcı və intellektual inkişafına təkan verilməsi, şagird və tələbələrin intellektual fəaliyyətə daha geniş miqyasda cəlb edilməsinin və asudə vaxtlarının səmərəli təşkilinin təmin olunması məqsədilə GameTV.az prodüser mərkəzinin təşəbbüsü və Təhsil Nazirliyinin təşkilati dəstəyi ilə "Əlaçı" intellektual oyununun 4-cü mövsümü keçirilmişdir. Seçim turunda bütün regionlardan ümumilikdə 3000-dən çox məktəbli iştirak etmişdir.<br>GameTV.az prodüser mərkəzinin təşəbbüsü və Təhsil Nazirliyinin təşkilati dəstəyi ilə Breyn-Ring üzrə "Bilik" kuboku intellektual oyunu və həmin oyun üzrə 2017-ci ilin regional məktəb çempionatı keçirilmişdir. Yarış respublikada 12 zonanı (Bakı, Gəncə, Sumqayıt, Naxçıvan, Şəmkir, Mingəçevir, Şirvan şəhərlərini, İmişli, Masallı, Quba, Zaqatala, Göyçay rayonlarını) əhatə etmişdir. Çempionatın əsas məqsədi gənclərin intellektual və yaradıcılıq bacarıqlarının inkişafına təkan vermək, eləcə də yüksək yaradıcılıq qabiliyyətinə, intellektual potensiala və müxtəlif sahələrdə dərin biliklərə malik gənclərin aşkara çıxarılması, daha çox məktəblinin intellektual fəaliyyətə cəlb olunması, onların asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi olmuşdur.<br>50 təhsil müəssisəsində, o cümlədən 43 ümumi təhsil müəssisəsində "Elektron məktəb" layihəsi davam etdirilmiş, valideynlərin məlumatlandırılmasına xidmət edən "Valideyn nəzarəti sistemi" tətbiq edilmişdir.<br>Ümumi Təhsil İnformasiya Sistemi (UTİS) yaradılmış, ölkənin bütün ümumi təhsil müəssisələri barədə məlumatlar sistemə daxil edilmişdir.<br>Təhsil Nazirliyi tərəfindən e-resurs.edu.az, e-derslik.edu.az, e-sinif.edu.az, e-telim.edu.az, e-test.edu.az, imtahan.edu.az, i-olimp.edu.az elektron portallarından istifadə imkanları |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | genişləndirilmiş, portallarda müxtəlif fənlər üzrə elektron resurslar yerləşdirilərək, müəllimlərin və şagirdlərin istifadəsinə verilmişdir.<br>Hər il ümumi təhsil müəssisələrinin inzibati heyəti üçün İKT üzrə təlimlər təşkil edilir. Cari ildə də 500 rəhbər heyət təlimlərə cəlb edilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyası Yüksək Texnologiyalar Parkının (AMEA YT Park) yaradılması haqqında" 08.11.2016-cı il tarixli 2425 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 2016-cı il 16 noyabr tarixli 587 s nömrəli sərəncamının 2-ci bəndinin icrası ilə bağlı Azərbaycan Milli Elmlər Akademiyası və İqtisadiyyat Nazirliyi ilə razılaşdırılmış təkliflər 11.05.2017-ci il tarixində 04-11-2385/17 nömrəli məktubla ali təhsil müəssisələrinə göndərilmiş, müvafiq tədbirlərin həyata keçirilməsi tapşırılmışdır.<br>Bakı Mühəndislik Universiteti (BMU) tərəfindən AMEA YTP ilə əməkdaşlıq çərçivəsində 12.05.2017-ci il tarixində iki müqavilə imzalanmışdır.<br>"Azərbaycan Milli Elmlər Akademiyası Yüksək Texnologiyalar Parkı" MMC və Bakı Mühəndislik Universiteti arasında əməkdaşlıq haqqında Niyyət Sazişi imzalanmışdır.<br>Bakı Mühəndislik Universitetinin həyata keçirdiyi "Yeni fikir – 2017" startap müsabiqəsinin birgə təşkili həyata keçirilmişdir.<br>Cari ilin 9 iyun tarixində BMU-nun təşkilatçılığı və AMEA YT Parkın əsas tərəfdaşlığı ilə reallaşdırılan "Yeni Fikir 2017" startap müsabiqəsinin final mərhələsi keçirilmişdir. 148 startap layihəsinin iştirak etdiyi müsabiqədə 11 komanda finala vəsiqə qazanmışdır. Müsabiqənin nəticələrinə əsasən 5 layihə qalib elan edilmişdir. 1-ci yerə layiq görülən komandaya müsabiqənin baş sponsoru olan AMEA YT Park tərəfindən 10000 manat məbləğində pul mükafatı təqdim edilmişdir. 2-ci və 3-cü yerlərin sahiblərinə isə müsabiqəyə tərəfdaş olan özəl şirkətlər tərəfindən 5000 manat və 2500 manat pul mükafatı verilmişdir. Eyni zamanda, qaliblər Silikon Vadisinə (ABŞ/San-Fransisko) gediş-dönüş üçün aviabilet və digər müxtəlif mükafatlara layiq görülmüşlər. Müsabiqədə qalib gələn layihələr ilkin maliyyə dəstəyi, inkubasiya və akselerasiya xidmətləri ilə dəstəklənir.<br>Bakı Dövlət Universiteti (BDU) ilə Azərbaycan Milli Elmlər Akademiyası və AMEA YT Park arasında birgə elmi tədqiqat |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | və təcrübə-konstruktor işlərinin yerinə yetirilməsi sahəsində əməkdaşlığa dair müqavilə layihəsi hazırlanmış və AMEA-ya təqdim edilmişdir. Müqavilədə BDU-nun tələbə və magistrantları üçün YT Parkında istehsalat və elmi tədqiqat təcrübələrinin təşkili nəzərdə tutulmuşdur.<br>Azərbaycan Dövlət İqtisad Universiteti (ADİU) ilə AMEA arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında imzalanmış Protokola uyğun olaraq, elm və təhsilin inteqrasiyası üzrə birgə Fəaliyyət Planının hazırlanması üçün işçi qrup yaradılmışdır.<br>Sumqayıt Dövlət Universitetinin (SDU) AMEA YT Parkında dayaq nöqtəsinin yaradılması istiqamətində işlər aparılır. Universitetin AMEA ilə birgə elmi tədqiqat və təcrübə-konstruktor işlərinin yerinə yetirilməsi sahəsində əməkdaşlıq əlaqələri yaradılmışdır. AMEA-nın Polimer Materialları İnstitutu, Neft Kimya Prosesləri İnstitutu, Kataliz və Qeyri-üzvi Kimya İnstitutu ilə əməkdaşlıq müqavilələri imzalanmışdır.<br>SDU-da gənclərin innovativ elmi ideyalarının biznes layihələrinə çevrilməsinə dəstək məqsədilə startap qrupları formalaşdırılmış, startap layihələrinin (Elektron dozlayıcı; Sxem texnikası platforması; Hiponat-elektrolizer; Kriptoin-terfeys; Vibrohəssas sensor; Akustik identifikator; Piramidal kamera; Termostat soba; Pəncə sensoru sistemi; Xidmət terminalı və s.) texniki ekspertizasının aparılması və kommersiyalaşdırılması məqsədi ilə AMEA YT Parkına təqdim olunması nəzərdə tutulmuşdur.<br>Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) “Eazi START” startap və innovasiya mərkəzi yaradılmış, startap məktəbinin inkişafında, təlimlərin həyata keçirilməsi, tələbələrlə işlərin aparılmasında tərəfdaş qurumlar olan “Sikorski Çellenc” (Ukrayna) və “BeNextIT” (İsrail) biznes inkubatorları yaxından iştirak etmişlər.<br>2017-ci ilin 16 iyun tarixində isə “Eazi START”ın təşkilatçılığı ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində İkinci Startap və İnnovasiya Festivalı baş tutmuş, hazır startap məhsulları təqdim edilmişdir.<br>“Eazi START” Azərbaycanda startap hərəkatına töhfə vermək, əsasən gənclərin innovativ ideyalarının biznes strukturlarına çevrilməsinə dəstək məqsədilə fəaliyyət göstərir. Qurumun hədəflərinə yalnız Azərbaycan miqyaslı |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | deyil, həmçinin dünya səviyyəli layihə və məhsulları ortaya çıxarmaq da daxildir. Buna görə də, növbəti mərhələdə bu mərkəzin universitet çərçivəsindən kənara çıxaraq, hamı üçün (Azərbaycan vətəndaşları və əcnəbilər) açıq olması, bölgələrimizdə filiallarının yaradılması nəzərdə tutulmuşdur.<br>ADNSU ilə AMEA-nın Neft Kimya Prosesləri İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanmış, AMEA-nın Geologiya-Geofizika İnstitutunda, Y.Məmmədəliyev adına Neft-kimya Prosesləri İnstitutunda, Kibernetika İnstitutunda baza kafedraları yaradılmışdır. Universitet tərəfindən həyata keçirilən layihələr AMEA YT Parkı ilə əlaqələndirilmişdir.<br>AMEA YT Parkının istiqamətlərinə uyğun elmi işlərinin aparılması, startap və innovasiya layihələrinin həyata keçirilməsi YT Parkla əməkdaşlıq çərçivəsində həyata keçirilir. Müvafiq universitetlər tələbələrin təcrübə keçməsi və mütəxəssislər tərəfindən tədqiqat işlərinin mövzularının müəyyənləşdirilməsi və tədqiqatın aparılması ilə bağlı YT Parkla müqavilələr imzalamış, qrafiklər tərtib etmişlər.<br>Elmi məqalələrin "Thomson Reuters" Agentliyinin bazasına daxil olan impakt faktorlu jurnallarda nəşr aktivliyinin yüksəldilməsi və bu istiqamətdə müxtəlif stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi ilə bağlı universitetlər AMEA YT Parkı ilə əməkdaşlıq əlaqələri yaratmışdır. |

## Prioritet 3.2. **Əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının inkişafının stimullaşdırılması**

**Görülmüş işlər barədə qısa məlumat:**

2016-cı ildə və 2017-ci ilin birinci yarımili ərzində 158 sahibkarlıq subyektinə (141 hüquqi şəxs, 17 fərdi sahibkar) 169 investisiya təşviqi sənədi təqdim olunmuşdur. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 1,6 milyard manat investisiya yatırılacaq, 11113 yeni iş yeri açılacaqdır.
İnvestisiya təşviqi sənədi almış 70 müəssisə artıq fəaliyyət göstərir, digərləri isə 2018-ci ilin sonuna qədər fəaliyyətə başlayacaqdır.
Hesabat dövrü ərzində ölkə iqtisadiyyatına investisiya imkanları ilə bağlı yerli şirkətlərlə görüşlər keçirilmişdir. Görüşlər zamanı şirkətlərin təqdim etdiyi investisiya layihələri nəzərdən keçirilmiş, bu barədə müzakirələr aparılmış və prioritet hesab olunan layihələr "İnvestisiya layihələri" kataloquna daxil edilmişdir.
2017-ci il 11 may tarixində Bakı Biznes Mərkəzində AZPROMO-nun təşkilatçılığı ilə "TUV Austria" şirkəti ilə Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlər arasında işgüzar görüş keçirilmişdir. Tədbirdə müxtəlif sahələrdə fəaliyyət göstərən 20 şirkətin nümayəndəsi iştirak etmişdir. Görüşdə "TUV Austria" şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri şirkət haqqında təqdimatla çıxış etmiş və iştirakçıları maraqlandıran sualları cavablandırmışdır.
Hesabat dövrü ərzində ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi məqsədilə "Doing Business" broşuru, "İnvestisiya layihələri" kataloqu yenilənmiş, "Sənaye" broşurunun yenilənməsinə başlanılmışdır.

**Problemlər:**

**Dəstəkləyici sistemin yaradılması ilə bağlı işlər sürətli şəkildə getmir.**

**Tövsiyələr:**

*Dəstəkləyici sistemin yaradılması üzrə tədbirin icra müddətinin 2017-ci il müəyyən edildiyini nəzərə alaraq, bu istiqamətdə Strateji Yol Xəritəsində müəyyən edilmiş qaydada işlərin icrası sürətləndirilə bilər.*

| | | |
|---|---|---|
| İcra edilmişdir | 4 tədbirdən 1-i | **25%** |
| İcrasına başlanılmışdır | 4 tədbirdən 1-i | **25%** |
| İcrasına başlanılmamışdır | 4 tədbirdən 2-si | **50%** |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə | Əlaqələndirici qurum tərəfindən təqdim edilmiş məlumatlar |
|---|---|---|---|---|---|
| 3.2.1. Dəstəkləyici sistemin yaradılması | İqtisadiyyat Nazirliyi | Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2017 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Azərbaycan Respublikası iqtisadiyyat nazirinin 2017-ci il 21 aprel tarixli F-60 nömrəli əmrinə əsasən, İqtisadiyyat Nazirliyində “Əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının inkişafının stimullaşdırılması” prioritet istiqamətinin “3.2.1. Dəstəkləyici sistemin yaradılması” və “3.2.4. Sektorlar üzrə əmək məhsuldarlığı təşəbbüslərinin reallaşması” tədbirlərinin icrasının təmin edilməsi üzrə müvafiq işçi qrup yaradılmışdır.<br>Tədbirin icrasının təmin edilməsi məqsədilə icraçı qurumların və Azərbaycan Milli Elmlər Akademiyasının iştirakı ilə işçi qrup yaradılmışdır.<br>Müvafiq dövlət qurumlarından tədbirin icrası ilə əlaqədar təkliflər toplanılaraq ümumiləşdirilmişdir, alttədbirlər formalaşdırılmış və icrasına başlanılmışdır.<br>Məşğul, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, həmçinin aktiv əmək bazarı proqramlarının təkmilləşdirilməsi və səmərəliliyinin artırılması məqsədilə, aidiyyəti dövlət orqanlarının təklifləri nəzərə alınaraq, “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının qanunu layihəsi hazırlanmışdır. Qanun layihəsi hazırlanarkən bir sıra ölkələrin, o cümlədən Almaniya, Amerika Birləşmiş Ştatları, Yaponiya, Estoniya, Fransa, İtaliya, Türkiyə, Ukrayna və digər ölkələrin işsizlikdən sığorta sistemi üzrə qanunvericiliyi öyrənilmiş, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dünya Bankı tərəfindən birgə həyata keçirilən “Sosial müdafiənin inkişafı Layihəsi” çərçivəsində qanun layihəsi beynəlxalq ekspertlərin ekspertizasından keçirilmişdir.<br>“İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının qanunu layihəsi Milli Məclis tərəfindən qəbul edilmiş və Azərbaycan Respublikası Prezidentinin “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə” 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanı ilə onun tətbiqi üzrə tapşırıqların icrasına başlanılmışdır. Qanun 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.<br>“Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 aprel tarixli Sərəncamı ilə əhalinin |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | özünüməşğulluğuna kömək məqsədilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 6 milyon manat vəsait ayrılmışdır.<br>Seçim nəticəsində respublikanın 84 şəhəri (rayonu) üzrə (Naxçıvan Muxtar Respublikası daxil olmaqla) 1385 nəfər iştirakçı müəyyən edilmişdir.<br>Naxçıvan Muxtar Respublikası üzrə 8 rayonda 82 iştirakçı proqrama cəlb edilmiş, bununla əlaqədar layihənin icrası Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılmışdır.<br>Digər 76 rayondan 47-sində (Beyləqan, Ağcabədi, Hacıqabul, Tərtər, Xocavənd, Laçın, Qəbələ, İsmayıllı, Ağsu, Göyçay, Bərdə, Ağdam, Yevlax, Füzuli, Saatlı, Neftçala, Cəbrayıl, Biləsuvar, Şirvan, Yardımlı, Lerik, Cəlilabad, Astara, Salyan, Masallı, Naftalan, Xocalı, Samux, Göygöl, Daşkəsən, Ağstafa, Qusar, Quba, Siyəzən, Şabran, Şamaxı, Qobustan, Balakən, Zaqatala, Qax, Oğuz, Ucar, Zərdab, Qubadlı, Xızı, Şuşa, Zəngilan) aktivlərin təhvil verilməsi tam icra olunmuşdur.<br>Bakı Biznes Tədris Mərkəzi və onun nümayəndəlikləri tərəfindən 2017-ci ilin yanvar-iyun aylarında Bakı şəhərində və regionlarda xarici və yerli ekspertlərin iştirakı ilə sahibkarlar, iş adamları və sahibkarlıq fəaliyyətinə yeni başlayanlar üçün “Biznes planların və investisiya layihələrinin hazırlanması”, “Biznes ideyanı yarat”, “Öz biznesinə başla”, “Korporativ idarəetmə”, “Made in Azerbaijan” brendinin yaradılması və inkişafı”, “Ekoloji təmiz kənd təsərrüfatının inkişafı” və digər mövzular üzrə 64 treninq, seminar, dəyirmi masa və digər tədbirlər keçirilmişdir. Bu tədbirlərin 11-i Bakı şəhərində, 53-ü isə regionlarda keçirilmiş, tədbirlərdə 1150-dən çox dinləyici iştirak etmişdir.<br>2017-ci ilin may-iyun ayları ərzində Bakı Biznes Tədris Mərkəzi tərəfindən kiçik və orta sahibkarlar üçün 24–26 may, 31 may və 2 iyun tarixlərində Yevlaxda, 8 iyun tarixində isə Gəncədə “Biznes planların və investisiya layihələrinin hazırlanması” mövzusunda treninqlər keçirilmişdir. Bundan əlavə, kiçik və orta sahibkarlar üçün 5 iyun tarixində Şəkidə, 14 iyun tarixində isə Naftalanda “Korporativ idarəetmə” |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | mövzusunda treninqlər keçirilmişdir.<br>Eyni zamanda, dəstəkləyici sistemin yaradılması istiqamətində beynəlxalq təcrübənin araşdırılmasına başlanılmışdır. |
| 3.2.2. İstehsalın və investisiyanın təşviq edilməsi | İqtisadiyyat Nazirliyi | Maliyyə Nazirliyi | 2017-2020 | ☒ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | 2016-cı il və 2017-ci ilin birinci yarımili ərzində 158 sahibkarlıq subyektinə (141 hüquqi şəxs, 17 fərdi sahibkar) 169 investisiya təşviqi sənədi təqdim olunmuşdur. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 1,6 milyard manat investisiya yatırılacaq, 11113 yeni iş yeri açılacaqdır.<br>Təqdim edilmiş sənədlərin 36,7 faizi (62 investisiya təşviqi sənədi, 840 milyon manat investisiya) kənd təsərrüfatı üzrə təqdim edilmişdir. Onun 23,7 faizi istixanalar üzrə (cəmi 40 istixana), 13 faizi isə kənd təsərrüfatının başqa fəaliyyət sahələri üzrə verilmişdir. İstixanalar üzrə verilmiş təşviq sənədlərinin 62,5 faizi (25 istixana) Bakıətrafı və Abşeron rayonu ərazisini, 37,5 faizi isə (15 istixana) respublikanın başqa rayonlarını əhatə edir. İstixanalarda pomidor, xiyar, badımcan, çiyələk və qızılgül kimi kənd təsərrüfatı məhsulları yetişdirilir. İstixanalarda əsasən orqanik məhsullar yetişdirilərək bir sıra xarici ölkələrə, əsasən, Rusiya bazarlarına ixrac olunur. Müşahidələr göstərir ki, bu rəqabətli bazarın həcmi kifayət qədər böyükdür və qeyd edilənlər sahənin inkişafı perspektivlərini artırır.<br>Təqdim edilmiş sənədlərin 63,3 faizi (107 investisiya təşviqi sənədi, 734,2 milyon manat investisiya) isə sənaye sahələrində icra olunacaq layihələri əhatə edir.<br>İnvestisiya təşviqi sənədi almış 70 müəssisə artıq fəaliyyət göstərir, digərləri isə 2018-ci ilin sonuna qədər fəaliyyətə başlayacaqdır.<br>Layihələr 5 region üzrə 8 iqtisadi rayonda (Abşeron, Gəncə - Qazax, Şəki – Zaqatala, Lənkəran, Quba – Xaçmaz, Aran, Yuxarı Qarabağ, Dağlıq Şirvan iqtisadi rayonu) reallaşacaqdır. Təşviq edilmiş layihələrin 0,6 faizi Bakı şəhərinin, 34,3 faizi Bakıətrafı qəsəbələrin və Abşeron rayonunun, 65,1 faizi isə digər şəhər və rayonların payına düşür.<br>2017-ci ilin I yarımilliyi ərzində 79 sahibkarlıq subyektinə 85 investisiya təşviqi sənədi verilmişdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Bu dövr ərzində verilmiş investisiya təşviqi sənədlərinin 30-u kənd təsərrüfatının, 55-i isə sənayenin payına düşmüşdür.<br>Həmin sahibkarlıq subyektləri tərəfindən 556.951,1 min manat investisiya yatırılması nəzərdə tutulur. Cari ilin ilk 6 ayı ərzində bu istiqamətdə ölkəyə gətirilmiş avadanlıqların dəyəri 66.825 min ABŞ dolları təşkil etmiş və həmin sahibkarlıq subyektləri – 17.185 min ABŞ dolları güzəşt əldə etmişlər. Bu layihələr çərçivəsində 4.428 iş yerinin açılması nəzərdə tutulmuşdur.<br>Hesabat dövrü ərzində ölkə iqtisadiyyatına investisiya imkanları ilə bağlı yerli şirkətlərlə görüşlər keçirilmişdir. Görüşlər zamanı şirkətlərin təqdim etdiyi investisiya layihələri nəzərdən keçirilmiş, bu barədə müzakirələr aparılmış və prioritet hesab olunan layihələr İnvestisiya layihələri kataloquna daxil edilmişdir.<br>Bundan əlavə, cari ilin 11 may tarixində Bakı Biznes Mərkəzində AZPROMO-nun təşkilatçılığı ilə "TUV Austria" şirkəti ilə Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlər arasında işgüzar görüş keçirilmişdir. Tədbirdə müxtəlif sahələrdə fəaliyyət göstərən 20 şirkətin nümayəndəsi iştirak etmişdir. Görüşdə "TUV Austria" şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri şirkət haqqında təqdimatla çıxış etmiş və iştirakçıları maraqlandıran sualları cavablandırmışdır.<br>Eyni zamanda, hesabat dövrü ərzində ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi məqsədilə Doing Busines broşuru, İnvestisiya layihələri kataloqu yenilənmiş, Sənaye broşurunun yenilənməsinə başlanılmışdır. |
| 3.2.3. İnnovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviq edilməsi | İqtisadiyyat Nazirliyi | Azərbaycan Milli Elmlər Akademiyası | 2017-2020 | ☐ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☒ icrasına başlanılmamışdır | "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının "3.2.3. İnnovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviq edilməsi" bəndinin icrası məqsədilə Azərbaycan Respublikası iqtisadiyyat nazirinin F-60 nömrəli əmri ilə cari ilin 21 aprel tarixində işçi qrup yaradılmışdır. AZPROMO-nun təşkilatçılığı ilə cari ilin 19 iyun tarixində işçi qrupun ilk iclası keçirilmişdir. İclasda innovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviqi ilə bağlı ümumi məsələlər müzakirə edilmiş və işçi qrupun üzvləri tərəfindən hazırlanacaq təkliflərin keçiriləcək növbəti iclasda müzakirə ediləcəyi |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | bildirilmişdir. Sözügedən təkliflər əsasında Tədbirlər Planı hazırlanacaqdır. |
| 3.2.4. Sektorlar üzrə əmək məhsuldarlığı təşəbbüslərinin reallaşdırılması | İqtisadiyyat Nazirliyi | Azərbaycan Milli Elmlər Akademiyası | 2017-2018 | ☐ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☒ icrasına başlanılmamışdır | Tədbirin icrasının təmin edilməsi üzrə icraçı qurumların iştirakı ilə işçi qrup yaradılmışdır. Müvafiq dövlət qurumlarından tədbirin icrası ilə əlaqədar təkliflər toplanılmış və ümumiləşdirilmiş, alttədbirlər formalaşdırılmış və icrasına başlanılmışdır.<br>Sektorlar üzrə əmək məhsuldarlığı təşəbbüslərinin reallaşdırılması istiqamətində beynəlxalq təcrübənin araşdırılmasına başlanılmışdır. |

# Prioritet 4.1. Əlverişli biznes mühitinin yaradılmasında hökumətin aparıcı rolunun daha da gücləndirilməsi

**<u>Görülmüş işlər barədə qısa məlumat:</u>**

Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı Komissiyanın müvafiq işçi qrupu tərəfindən "Rəqabət Məcəlləsi"nin yeni layihəsi hazırlanaraq, Komissiyaya təqdim edilmişdir. Habelə, müstəqil rəqabət orqanının yaradılması ilə bağlı beynəlxalq təcrübə öyrənilmiş və müvafiq arayış hazırlanmışdır.

"Dövlət xidmətləri haqqında" qanun layihəsi hazırlanmışdır. Layihə rəy və təkliflərin bildirilməsi üçün Elektron xidmətlərin təşviqi üzrə İctimai Şuraya təqdim edilmişdir. Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 sentyabr tarixli 262 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən, dövlət xidmətlərinin "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən işçi qrup yaradılmış, işçi qrup tərəfindən pilot layihə çərçivəsində 10 mərkəzi icra hakimiyyəti orqanının və Bakı şəhərində yerləşən yerli icra hakimiyyəti orqanlarının ümumilikdə 411 xidməti üzrə qiymətləndirmə həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin kollegiyasının 2016-cı il 4 noyabr tarixli 1/1-07 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarında elektron xidmətlərin və informasiya sistemlərinin qiymətləndirilməsi Qaydaları"na uyğun olaraq, dövlət orqanlarının informasiya sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirmənin aparılması fəaliyyəti həyata keçirilir.

"Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2018-2025-ci illər üzrə Dövlət Proqramı"nın layihəsi, "Standartlaşdırma haqqında" yeni qanun layihəsi, eləcə də istehlak bazarında qeyri-qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa, "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa və İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi ilə bağlı normativ hüquqi aktların layihələri hazırlanaraq, aidiyyəti qurumlara göndərilmişdir.

**<u>Problemlər:</u>**

**1. Dövlət-özəl tərəfdaşlığının daha da inkişaf etdirilməsi, infrastruktur sahələrinin inkişafına özəl sərmayənin cəlbinin stimullaşdırılması istiqamətində kifayət qədər iş aparılmamışdır.**

**2. Avropa İttifaqı, Körfəz ölkələri, Çin kimi bazarlara daha əlverişli ticarət rejimi əsasında daxil olmaq istiqamətində fəaliyyətlərin həyata keçirilməsi, elektron ticarətin beynəlxalq normalara uyğun infrastrukturunun və hüquqi bazasının inkişafının təmin olunması istiqamətində əsaslı tədbirlər görülməmişdir.**

**<u>Tövsiyələr:</u>**

1. *Strateji Yol Xəritəsinin tədbirlərinə uyğun olaraq işlərin aparılması sürətləndirilə bilər.*
2. *Rəqabət məcəlləsinin qəbul edilməsi və institusional islahatların aparılması istiqamətində işlər sürətləndirilə bilər.*
3. *Texniki tənzimləmə haqqında qanunun qəbulu və "Elektron ticarət haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsi istiqamətində işlər sürətləndirilə bilər.*

| | | |
|---|---|---|
| İcra edilmişdir | – | **0%** |
| İcrasına başlanılmışdır | 5 tədbirdən 5-i | **100%** |
| İcrasına başlanılmamışdır | – | **0%** |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə | Əlaqələndirici qurum tərəfindən təqdim edilmiş məlumatlar |
|---|---|---|---|---|---|
| 4.1.1. Azad rəqabət mühitinin inkişaf etdirilməsi | İqtisadiyyat Nazirliyi | Ədliyyə Nazirliyi | 2017-2018 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı Komissiya çərçivəsində "Əmtəə bazarının səmərəliliyi və rəqabət" istiqaməti üzrə işçi qrup yaradılmış və Rəqabət Məcəlləsinin yeni layihəsi hazırlanaraq Komissiyaya təqdim edilmişdir. Habelə, müstəqil rəqabət orqanının yaradılması ilə bağlı beynəlxalq təcrübə öyrənilmiş və müvafiq arayış hazırlanmışdır.<br>Əhali tərəfindən daha çox istifadə olunan malların – 57 adda ərzaq, 28 adda tərəvəz məhsulu və 51 adda tikinti materialının orta bazar qiymətlərinin səviyyəsi, dinamikası və dəyişmə meyilləri barədə məlumatların toplanması və təhlili məqsədilə ölkənin bütün regionlarını əhatə edən mütəmadi monitorinqlər davam etdirilmişdir.<br>Taxıl məhsullarının süni qiymət artımının qarşısının alınması məqsədilə çörəyin və unun qiymətinin bütün regionlarda mütəmadi monitorinqlər davam etdirilmişdir. Monitorinqlər zamanı süni qiymət artımı qeydə alınmamışdır. |
| 4.1.2. Səmərəli vergi sisteminin təşviq edilməsi | Vergilər Nazirliyi | İqtisadiyyat Nazirliyi | 2017 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının 4.1.2-ci yarımbəndində nəzərdə tutulmuş "Səmərəli vergi sisteminin təşviq edilməsi" tədbiri üzrə işçi qrupun tərkibi təsdiq edilərək 2017-ci il 22 fevral, 15 mart və 22 iyun tarixlərində onun görüşləri keçirilmişdir.<br>Tədbirlər Planı və 2017-ci ilin aprel–iyun aylarında görülməsi nəzərdə tutulan işlər (səfirliklərin və digər əhəmiyyətli dövlət və qeyri-dövlət saytlarının siyahısı və onlarda yerləşdiriləcək "Azərbaycan Respublikasında xarici investisiyalar üçün əlverişli vergi mühiti" adlı nümunəvi məlumat forması) icra olunaraq 2017-ci il 6 iyul tarixli 1717020135073300 nömrəli məktubla Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilmişdir. Azərbaycan Respublikasının Vergilər Nazirliyinin rəsmi internet səhifəsində "Azərbaycan Respublikasında xarici investisiyalar üçün əlverişli vergi mühiti" başlığı ilə 2 dildə (azərbaycan və ingilis) xüsusi çərçivə ("frame") formasında məlumat yerləşdirilmişdir. Həmin məlumatların |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, daimi nümayəndəlik və konsulluqlarının rəsmi internet səhifələrində yerləşdirilməsi tam təmin edilmişdir. Hazırda həmin məlumatların 59 dövlət və 14 qeyri-dövlət qurumlarının saytlarında yerləşdirilməsi məqsədilə Media Kommunikasiya Mərkəzi tərəfindən işlər davam etdirilir.<br>Eyni zamanda, 2017-ci ilin 3-cü rübündə icrası nəzərdə tutulan "Pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən mal (iş, xidmət) təqdim edilməsi üzrə nağdsız əməliyyatlara vergi güzəştlərinin tətbiqi mexanizminin işlənib hazırlanması" və "Vergi ödəyicilərində keçirilmiş vergi nəzarəti tədbirləri nəticəsində onlara hesablanmış vergi və maliyyə sanksiyalarının ödəmə müddətindən tez ödənilməsinə görə maliyyə sanksiyaları üzrə güzəştlərin tətbiqi mexanizminin işlənib hazırlanması" istiqamətləri üzrə qanun layihələri hazırlanaraq İqtisadiyyat və Maliyyə nazirliklərinə təqdim edilmişdir. 14 sentyabr 2017-ci il tarixdə hazırlanmış həmin qanun layihələrinin müzakirəsi məqsədilə işçi qrupun növbəti iclası keçiriləcəkdir. |
| 4.1.3. Dövlət xidmətlərinin çevikliyinin və səmərəliliyin artırılması | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2017-2018 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin 2017-ci il 27 yanvar tarixli 170102491500055 nömrəli əmri ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin Dövlət Agentliyində icrası üzrə Tədbirlər Planı"na uyğun olaraq, Dövlət Agentliyində Elektron xidmətlərin inkişafı və sosial innovasiyalar, Nəzarət və qiymətləndirmə, Səyyar xidmətlərin təşkili və Hüquqi təminat şöbələrindən ibarət icra qrupu müəyyən edilmişdir. İcra qrupu tərəfindən "4.1.3. Dövlət xidmətlərinin çevikliyinin və səmərəliliyin artırılması" yarımbəndi üzrə həyata keçirilməsi nəzərdə tutulan əsas tədbirlər müəyyən edilmişdir.<br>"Dövlət xidmətləri haqqında" qanun layihəsi hazırlanmışdır. Layihə rəy və təkliflərin bildirilməsi üçün Elektron xidmətlərin təşviqi üzrə İctimai Şuraya təqdim edilmişdir.<br>"Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 sentyabr tarixli 262 nömrəli |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Fərmanının 2.4-cü bəndinə əsasən dövlət xidmətlərinin “ASAN xidmət indeksi” üzrə qiymətləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən işçi qrup yaradılmışdır. İşçi qrup tərəfindən pilot layihə çərçivəsində 10 mərkəzi icra hakimiyyəti orqanının və Bakı şəhərində yerləşən yerli icra hakimiyyəti orqanlarının ümumilikdə 411 xidməti üzrə qiymətləndirmə həyata keçirilmişdir. Xidmətlər 7 parametr və 143 altmeyar üzrə dövlət orqanları tərəfindən doldurulan anketlərdə qeyd edilən əsaslandırıcı məlumatlar nəzərə alınmaqla qiymətləndirilmişdir. Göstərilən dövlət xidmətləri barədə ictimaiyyətin birdən çox üsulla məlumatlandırılması, xidmətin elektronlaşdırılması, xidmətin qısa müddətə göstərilmə imkanlarının olması, vətəndaşdan sənəd tələb edilmədən mövcud informasiya sistemlərindən inteqrasiya üsulu ilə əldə edilməsi, xidməti həyata keçirən şəxslərin nəzakətliliyi, vətəndaşların şikayətlərinin qəbul və araşdırılma mexanizminin olması və vətəndaşların xidmət barədə rəylərinin öyrənilməsi və s. “ASAN xidmət indeksi” üzrə qiymətləndirilən amillərdir.<br>Pilot layihə çərçivəsində qiymətləndirilmiş xidmətlər üzrə aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması ilə bağlı dövlət orqanlarına təkliflər verilməsi nəzərdə tutulur.<br>Qiymətləndirmə nəticələrinin və hər bir xidmət üzrə “ASAN xidmət indeksi”nin bu ilin sentyabr ayında ictimaiyyətə açıqlanması nəzərdə tutulur.<br>Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin kollegiyasının 2016-cı il 4 noyabr tarixli 1/1-07 nömrəli qərarı ilə təsdiq edilmiş “Dövlət orqanlarında elektron xidmətlərin və informasiya sistemlərinin qiymətləndirilməsi Qaydaları”na uyğun olaraq, dövlət orqanlarının informasiya sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparılması fəaliyyəti həyata keçirilir. Qaydalar “İnformasiya sistemlərinin təşkili və fəaliyyəti ilə bağlı qiymətləndirmə üzrə meyarlar və parametrlər”i, “İnformasiya sisteminin tərkibi haqqında” və “İnformasiya sisteminin vəziyyəti haqqında” məlumatları əhatə edir. Qiymətləndirmə zamanı “Sistem və tətbiqi proqram |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | təminatı", "İnteqrasiya", "Şəbəkə və ilkin təhlükəsizlik tədbirləri", "Məlumat bazaları ("database") və məlumat arxivləri ("backup")", "Prosedurlar", "Fövqəladə hallar" və "Server otağı və komputer avadanlıqları" bölümləri ilə bağlı vəziyyət dəyərləndirlir.<br>Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin əmri ilə təsdiq edilmiş "Dövlət orqanlarının informasiya sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirmənin aparılması haqqında Proqram"a uyğun olaraq, Azərbaycan Respublikasının Daxili İşlər, Ədliyyə, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat nazirliklərində, Dövlət Gömrük Komitəsində, Dövlət Miqrasiya Xidmətində, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində, Milli Arxiv İdarəsində və Əmlak Məsələləri Dövlət Komitəsində informasiya sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparılması nəzərdə tutulur.<br>ASAN radionun efirində həftədə bir dəfə efirə gedən 1 saatlıq "Texnovasiya" verilişində mütəmadi olaraq vətəndaşlara elektron imza vasitələrindən istifadə ilə bağlı məlumat verilir, elektron imzadan istifadə edilməklə xidmətlərə müraciət imkanları təbliğ edilir. Verilişin bir buraxılışı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən təqdim edilən "Elektron imza"ya həsr edilmişdir. |
| 4.1.4. Azad ticarət sazişlərinin bağlanması | İqtisadiyyat Nazirliyi | Xarici İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi | 2017-2020 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Tədbirin icrası ilə əlaqədar bir sıra ölkələrlə danışıqlar aparılmış, ilkin mərhələdə müəyyən razılıq əldə edilmişdir. |
| 4.1.5. Texniki tənzimləmə və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılması, onların biznes mühitinə dəstək istiqamətində tətbiq edilməsi | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | İqtisadiyyat Nazirliyi | 2017-2019 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | "Standartlaşdırma, metrologiya, akkreditasiya və patent hüququ obyektlərinin mühafizəsi sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli 1234 nömrəli Fərmanının 1.3-cü bəndində və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 fevral 2017-ci il tarixli 113S nömrəli sərəncamının 2.3-cü bəndində nəzərdə tutulmuş tapşırığın icrası məqsədilə "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2018-2025-ci illər üzrə Dövlət Proqramı"nın layihəsi hazırlanmış və münasibət |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | bildirilməsi üçün 05.06.2017-ci il 170123200791 nömrəli məktubla aidiyyəti qurumlara göndərilmişdir.<br>Proqramın icrası çərçivəsində Avropa İttifaqının direktivləri əsasında 33 milli texniki reqlamentin və beynəlxalq standartlara istinad olunan milli standartların hazırlanması, qəbulu və sahibkarlara təqdim olunması nəzərdə tutulmuşdur. Bu proqramda “Maşınlar üzrə (2006/42/EC direktivi)” Avropa Direktivi əsasında milli texniki reqlamentlərin hazırlanması və qəbulu, eyni zamanda beynəlxalq və Avropa standartları əsasında hazırlanmış milli texniki reqlamentlərdə qeyd edilən istinad standartların hazırlanması və qəbulu nəzərdə tutulmuşdur.<br>“Standartlaşdırma haqqında” yeni qanun layihəsi hazırlanaraq, razılaşdırılmaq üçün 2017-ci il 14 aprel tarixli məktublarla Ədliyyə, Maliyyə və İqtisadiyyat nazirliklərinə göndərilmişdir. Maliyyə və İqtisadiyyat nazirliklərindən layihəyə dair müvafiq rəy və təkliflər daxil olmuşdur. Ədliyyə Nazirliyindən də rəy və təklif daxil olduqdan sonra qeyd olunmuş təkliflər nəzərə alınmaqla yeni qanun layihəsi Nazirlər Kabinetinə təqdim olunacaqdır.<br>Eyni zamanda, Fərmanın 2-ci bəndinə uyğun olaraq “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununda dəyişiklik edilməsi ilə bağlı” Konstitusiya Qanununun layihəsi hazırlanaraq, razılaşdırılmaq üçün Ədliyyə, Maliyyə və İqtisadiyyat nazirliklərinə göndərilmişdir.<br>Bundan əlavə, qeyri-qida məhsullarının istehsalı zamanı texniki reqlamentlərin tələblərinə uyğunluğuna nəzarət səlahiyyətlərinin qanunla müəyyən olunmuş qaydada akkreditasiya edilmiş uyğunluğun qiymətləndirilməsi qurumlarına ötürülməsi ilə bağlı Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin təklifləri Azərbaycan Respublikasının Baş nazirinə 170120200561 nömrəli məktubla 2017-ci il 19 aprel tarixində təqdim edilmişdir. |

# Prioritet 4.2. **Təşviqedici mühitin yaxşılaşdırılması vasitəsilə biznesin davamlılığının möhkəmləndirilməsi**

**Görülmüş işlər barədə qısa məlumat:**

Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı Komissiya tərəfindən müvafiq təklif, təhlil və layihələrin hazırlanması məqsədilə Komissiya çərçivəsində ayrı-ayrı istiqamətlər üzrə 18 işçi qrup yaradılmış və Komissiya sədri tərəfindən təsdiq edilmişdir. Komissiya tərəfindən müəyyən edilmiş iqtisadi və biznes profilli 5 beynəlxalq reytinqdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində yaradılan işçi qruplarla mütəmadi görüşlər keçirilmiş, təklif və layihələr müəyyənləşdirilərək Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 iyun tarixli 2947 nömrəli “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamı ilə Tədbirlər Planı təsdiq edilmişdir. Bununla yanaşı, “Doing Business” hesabatına daxil olan 8 indikator üzrə qanunvericiliyə dəyişikliklər edilmiş, reytinqdə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması ilə bağlı zəruri tədbirlər görülmüşdür.

Statistika infrastrukturunun təkmilləşdirilməsi ilə əlaqədar zəruri tədbirlər “2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı”nın layihəsinə daxil edilmiş və razılaşdırılmaq üçün bütün aidiyyəti dövlət qurumlarına göndərilmişdir. Metodoloji bazanın möhkəmləndirilməsi Dövlət Statistika Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri olmuş, bir sıra metodoloji material BMT, Avrostat, BVF, İƏİT, BƏT və digər beynəlxalq təşkilatların metodologiyalarına uyğunlaşdırılmış, yeni metodologiyaların hazırlanması və tətbiqi istiqamətində işlər davam etdirilmiş, statistik hesabat formaları təkmilləşdirilmişdir. Milli statistika sisteminin zəruri məlumatlarla təmin edilməsi məqsədilə dövlət orqanlarının qarşılıqlı əməkdaşlığının və məlumat sistemlərinin inteqrasiyasının gücləndirilməsi istiqamətində Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Miqrasiya Xidməti, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Kənd Təsərrüfatı Nazirliyi və İqtisadiyyat Nazirliyi ilə birgə iş görülmüşdür. Hesabat dövründə Dövlət Statistika Komitəsində keyfiyyətin idarə edilməsi sistemi İSO 9001:2015 Keyfiyyəti İdarəetmə Sisteminin tələblərinə uyğun olaraq təkmilləşdirilmişdir. Statistik məlumatların toplanmasında, emalında və yayılmasında istifadə olunan informasiya texnologiyalarının tətbiqi imkanlarının genişləndirilməsi, statistik informasiya sisteminin inkişaf etdirilməsi üçün bir sıra işlər görülmüş, hesabat məlumatlarının respondentlər tərəfindən elektron formada, yerli statistika orqanlarına gəlmədən təqdim edilməsi üçün zəruri tədbirlər həyata keçirilmiş, rəsmi statistika hesabatlarının onlayn rejimdə elektron formada qəbulunun davamlılığı təmin edilmişdir. Dövlət Statistika Komitəsinin yeni internet saytı istifadəyə verilmişdir.

**Problemlər:**

**1. Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı bir sıra qanunvericilik layihələrinə dəyişiklik edilsə də, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı”nda (bundan sonra – Tədbirlər Planı) nəzərdə tutulmuş bütün istiqamətlər üzrə islahat tədbirləri başa çatdırılmamışdır.**

**2. Xarici investisiyaların cəlbi istiqamətində kifayət qədər sistemli işlər aparılmamışdır. Belə ki, mövcud iqtisadi şərtlər çərçivəsində qanunvericiliyin təhlil edilməsi və xarici investorların maraqlarının daha yaxşı nəzərə alınması ilə bağlı dəyişikliklərin layihəsi hazırlanmamışdır. Ümumiyyətlə, investisiya islahatlarına dair plan tərtib edilməmişdir.**

**Tövsiyələr:**

*1. Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin icrası istiqamətində işlər sürətləndirilə bilər.*

*2. İnvestisiya məsələləri ilə bağlı ətraflı təhlillər aparıla və İnvestisiya İslahatları Planı hazırlana bilər.*

*3. Statistika sahəsində müxtəlif qurumların informasiya sistemlərinin inteqrasiyasının gücləndirilməsi və vahid statistik məlumatların formalaşdırılması istiqamətində işlər sürətləndirilə bilər.*

| | | |
|---|---|---|
| İcra edilmişdir | 3 tədbirdən 1-i | **34%** |
| İcrasına başlanılmışdır | 3 tədbirdən 1-i | **33%** |
| İcrasına başlanılmamışdır | 3 tədbirdən 1-i | **33%** |

| Planlaşdırılmış tədbirlər | Əsas icraçı qurum | Digər icraçı qurumlar | İcra müddəti | Ümumi nəticə | Əlaqələndirici qurum tərəfindən təqdim edilmiş məlumatlar |
|---|---|---|---|---|---|
| 4.2.1. Biznesin təşkilinin asanlaşdırılması üçün mövcud islahatların sürətləndirilməsi və beynəlxalq reytinqlərdə mövqelərin yaxşılaşdırılması | Azərbaycan Respublika-sında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdı-rılması ilə bağlı Komissiya | İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası | 2017-2020 | ☒ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Ölkənin biznes və investisiya mühitinin əlverişliliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırmaq, sahibkarlıq sahəsində son illərdə nail olunmuş sürətli inkişafın davamlığını təmin etmək və rəqabət qabiliyyətini möhkəmləndirmək, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı" 2016-cı il 13 iyul tarixində Komissiya və Komissiyanın Katibliyi yaradılmışdır. Habelə, ölkədə biznes mühitinin əlverişliliyinin və ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin daha da yaxşılaşdırılması ilə əlaqədar təklif, təhlil və layihələrin hazırlanması məqsədilə Komissiya tərəfindən ayrı-ayrı istiqamətlər üzrə 18 işçi qrup yaradılmış və Komissiyanın sədri tərəfindən təsdiq edilmişdir.<br>Komissiya tərəfindən müəyyən edilmiş iqtisadi və biznes profilli 5 beynəlxalq reytinqdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində yaradılan işçi qruplarla mütəmadi görüşlər keçirilmiş, təklif və layihələr müəyyənləşdirilərək, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 iyun tarixli 2947 nömrəli "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı ilə Tədbirlər Planı təsdiq edilmişdir.<br>İqtisadi reytinq agentlikləri arasında ən çox istinad olunan və tanınan "Doing Business" hesabatı üzrə Komissiyanın Katibliyi və müvafiq işçi qruplar arasında keçirilən mütəmadi görüşlər və müzakirələr əsasında sözügedən hesabatın 8 indikatoru üzrə ölkənin mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində intensiv işlər aparılmış, qanunvericilik layihələri hazırlanmış və təsdiq olunmuşdur.<br>Kiçik investorların hüquqlarının qorunması istiqamətində Azərbaycan Respublikasının Mülki Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində 2017-ci il 25 aprel tarixində dəyişikliklər edilmiş, sözügedən investorların mövqeləri bir qədər də möhkəmləndirilmişdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Gömrük keçid məntəqələrində sahibkarların ixrac və idxal missiyalarının daha sürətli və çevik həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 263 nömrəli "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda dəyişikliklər edilmişdir.<br>Sahibkarların elektrik şəbəkələrinə qoşulması üçün "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanı ilə "Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə-smeta sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası" təsdiq edilmişdir;<br>Sahibkarlarla məhkəmələr arasında münasibətlərin elektron müstəviyə keçməsi məqsədilə 2016-cı il 30 sentyabr tarixli Qanunla Mülki Prosessual Məcəllənin 4-cü bəndində dəyişikliklər edilmişdir.<br>Sağlam rəqabət şəraitində bağlanan müəssisələrin iflas prosedurlarının daha da sadələşdirilməsi istiqamətində 2017-ci il 25 aprel tarixində "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmişdir.<br>Sahibkarların maliyyə resurslarına əlçatanlığını təmin etmək istiqamətində aparılan islahatlar çərçivəsində "Kredit büroları haqqında" 2016-cı il 28 oktyabr tarixli və "Daşınar əmlakın yüklülüyü haqqında" 2017-ci il 2 may tarixli Azərbaycan Respublikasının Qanunları qəbul edilmişdir.<br>Tikinti sektorunun daha da inkişaf etdirilməsi və tikintiyə icazələrin alınması prosedurlarının sadələşdirilməsi məqsədilə 2017-ci il 24 may tarixli Qanunla Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində bir sıra dəyişikliklər edilmişdir.<br>"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda 2017-ci il 25 aprel tarixli Qanunla dəyişiklik edilərək, mülkiyyət hüququnu təsdiq edən çıxarışın elektron qaydada əldə edilməsi imkanı təmin edilmişdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | İqtisadi islahatların kommunikasiyasının gücləndirilməsi yolu ilə yerli və xarici ictimaiyyətin məlumatlandırılması istiqamətində Komissiyanın üzvü İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən televiziya və mətbu orqanlarda kommunikasiya işləri aparılmış, o cümlədən “İslahat icmalı” jurnalı vasitəsilə bir milyona yaxın sahibkarın elektron ünvanına məlumat göndərilmişdir. |
| 4.2.2. Statistika infrastrukturunun təkmilləşdirilməsi | Dövlət Statistika Komitəsi | Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2017-2018 | ☐ icra edilmişdir<br>☒ icrasına başlanılmışdır<br>☐ icrasına başlanılmamışdır | Statistika infrastrukturunun təkmilləşdirilməsi ilə əlaqədar zəruri tədbirlər “2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı”nın layihəsinə daxil edilmiş və razılaşdırılmaq üçün bütün aidiyyəti dövlət qurumlarına göndərilmişdir.<br>Metodoloji bazanın möhkəmləndirilməsi Dövlət Statistika Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri olmuş, bir sıra metodoloji material BMT, Avrostat, BVF, İƏİT, BƏT və digər beynəlxalq təşkilatların metodologiyalarına uyğunlaşdırılmış, yeni metodologiyaların hazırlanması və tətbiqi istiqamətində işlər davam etdirilmiş, statistik hesabat formaları təkmilləşdirilmişdir.<br>Sığorta fəaliyyətinin rəsmi statistikada beynəlxalq standartlara uyğun daha dəqiq nəzərə alınması məqsədilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 18 mart tarixli 15/08 nömrəli qərarı ilə təsdiq edilmiş “Sığortaçının fəaliyyəti haqqında” 1-sığorta nömrəli rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstərişə yenidən baxılmış, layihələr rəy və təkliflərin bildirilməsi üçün Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasına təqdim edilmişdir.<br>“Şəxs əleyhinə zorakılıq” adlı seçmə statistik müşahidənin sorğu anketi və onun doldurulmasına dair göstərişin layihələri hazırlanmış, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə razılaşdırılmış və Dövlət Statistika Komitəsinin 10 may 2017-ci il tarixli 03/05s nömrəli sərəncamı ilə təsdiq edilmişdir.<br>Ev təsərrüfatlarında əhalinin məşğulluğuna dair seçmə statistik müayinənin aparılmasına dair metodiki tövsiyələr hazırlanmış, Dövlət Statistika Komitəsinin Elmi-metodoloji Şurasının 26 may 2017-ci il tarixli iclasında müzakirə olunaraq bəyənilmişdir. Əmək bazarına dair statistik göstəricilər sisteminin layihəsi hazırlanmış, Dövlət Statistika Komitəsinin Elmi-Metodoloji Şurasının 2017-ci il 23 iyun |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | tarixli iclasında müzakirə olunmuş, rəy və təkliflərin bildirilməsi üçün müvafiq dövlət orqanlarına göndərilmişdir.<br>Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2016-cı il 28 iyul tarixli, 30/06 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında" 1-miqrasiya nömrəli rüblük (illik) rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstərişdə dəyişikliklər Dövlət Miqrasiya Xidməti ilə razılaşdırılmış, Dövlət Statistika Komitəsinin 19.04.2017-ci il tarixli 7/06 nömrəli qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.<br>"Səyahət agentlikləri, turoperatorlar və turizm sahəsində əvvəlcədən sifarişetmə xidmətləri göstərən müəssisələrin fəaliyyəti haqqında" 1-turizm nömrəli (illik) rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş və "Mehmanxana və mehmanxana tipli müəssisələrin fəaliyyəti haqqında" 1-mehmanxana nömrəli yarımillik, illik rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş turizmin inkişafı ilə bağlı müasir tələblər nəzərə alınmaqla yenidən hazırlanaraq Mədəniyyət və Turizm Nazirliyi ilə razılaşdırılmış, Dövlət Statistika Komitəsinin 04.07.2017-ci il tarixli 10/18 və 11/18 nömrəli qərarları ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilmişdir.<br>Son zamanlar istixana təsərrüfatlarının sürətlə inkişaf etdiyini nəzərə alaraq, əvvəllər seçmə qaydada uçota cəlb edilən istixanalar 2017-ci ildən başdan-başa uçotla əhatə olunmuşlar. Bununla əlaqədar hazırlanmış 18-kt nömrəli yeni rüblük hesabat forması Kənd Təsərrüfatı və İqtisadiyyat nazirlikləri ilə razılaşdırılmış, Dövlət Statistika Komitəsinin 08.02.2017-ci il tarixli 1/11 nömrəli qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.<br>Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20.11.2009-cu il tarixli 181 nömrəli qərarının 4.3-cü bəndinə əsasən, 12 növ bitkiçilik, 5 növ heyvandarlıq və 12 növ sənaye mənşəli ərzaq məhsulları üzrə ilkin və dəqiqləşdirilmiş balanslar hazırlanıb Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə göndərilmişdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | “Yazlıq bitkilərin əkini”, “Tarlaya mineral və üzvi gübrələrin verilməsi”, “Heyvandarlığın vəziyyəti”, “Meşə tədarükü”, “Arıçılıq məhsullarının istehsalı”, “2017-ci ilin məhsulu üçün əkin sahələrinin qəti uçotu”, “Məhsul yığımı, payızlıqların səpini, dondurma şumu”, “Sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarın-fiziki şəxsin işi”, “Ev təsərrüfatlarında informasiya-kommunikasiya texnologiyalarından istifadə”, “Sərnişin daşınması ilə məşğul olan fərdi sahibkarın–fiziki şəxsin işi”, “Enerji məhsullarının qalığı, daxil olması və məsrəfi” və “Fərdi sahibkar–fiziki şəxslərin fəaliyyəti” haqqında müayinələr üçün seçmə şəbəkələri formalaşdırılmış və onların əsasında seçmə statistik müşahidələr keçirilmişdir.<br>Hesabat dövründə Dövlət Statistika Komitəsində keyfiyyətin idarə edilməsi sistemi İSO 9001:2015 Keyfiyyəti İdarəetmə Sisteminin tələblərinə uyğun olaraq təkmilləşdirilmişdir. Rəsmi statistika məlumatlarının istehsalı və yayılması sahəsində növbəti uyğunluq sertifikatının əldə olunması istiqamətində “SGS Azeri LTD” audit şirkəti ilə birlikdə müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi aparatının şöbələri və keyfiyyətin idarə edilməsi sisteminin (KİS) tətbiq olunduğu yerli statistika orqanları üzrə 2017-ci il üçün Audit proqramı”na əsasən, cari ilin yanvar – iyun aylarında KİS-in tətbiq olunduğu 13 yerli statistika orqanında (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Lənkəran şəhər və Saatlı, Ağstafa, Bərdə, Ağdam, Samux, Balakən, Zaqatala və Qax rayon statistika idarələri) və komitənin aparatında auditlər keçirilmiş, Dövlət Statistika Komitəsi “Rəsmi statistika məlumatlarının istehsalı və yayılması” sahəsində İSO 9001:2015 Keyfiyyəti İdarəetmə Sisteminə dair beynəlxalq uyğunluq sertifikatına layiq görülmüşdür.<br>2017-ci ildə “Daxili auditlər” sənədləşdirilmiş proseduru, “Keyfiyyəti İdarəetmə Sistemi və sənədləşdirilmiş prosedurlar” və “İSO 9001:2015 Keyfiyyəti İdarəetmə Sistemi” mövzularında seminarlar keçirilmişdir. “Potensial uyğunsuzluqlara və qabaqlayıcı tədbirlərə dair hesabat” üçün onlayn proqram təminatına dair məsələ qoyuluşu hazırlanmış, keyfiyyəti idarəetmə sisteminin tətbiq dairəsinin genişləndirilməsi istiqamətində müvafiq işlər görülmüş və Şirvan şəhər, Goranboy, Oğuz, Qəbələ, Hacıqabul, Tərtər və |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Füzuli rayon statistika idarələrində işlərin nomenklatur–siyahılarının, keyfiyyət sahəsində siyasət və məqsədlərinin hazırlanması təmin edilmiş, həmçinin “Uyğunsuzluqların və təshihedici tədbirlərin idarə edilməsi”, “İstifadəçilərlə əks-əlaqələrin idarə edilməsi”, “Risklərin və imkanların idarə edilməsi” sənədləşdirilmiş prosedurları və “Keyfiyyət üzrə vəsait” müvafiq əlavə və dəyişikliklər edilməklə aktuallaşdırılmış və Dövlət Statistika Komitəsinin 2017-ci il 02 may tarixli, 02/07s nömrəli sərəncamı ilə təsdiq edilmişdir.<br>İSO 9001:2015 beynəlxalq standartının tələblərinə uyğun olaraq, Sənaye və tikinti statistikası şöbəsinin fəaliyyət xüsusiyyətləri nəzərə alınmaqla, hər bir fəaliyyət üzrə istinad edilən normativ hüquqi sənədlər, “Sənaye və tikinti statistikası üzrə proseslərin idarə olunması standartları və prosesin xəritəsi” aktuallaşdırılmışdır. Keyfiyyətin idarə edilməsi sistemi çərçivəsində keyfiyyət üzrə məruzənin hazırlanmasında qəbul edilmiş standartların tələbləri nəzərə alınmaqla, “Əsas kapitala yönəldilmiş investisiya"lara dair, “Yaşayış evlərinin istifadəyə verilməsi"nə dair, “Sənaye məhsullarının buraxılışı”na dair, “Sənaye istehsalı indeksi”nə dair, “Əsas sənaye istehsal fondlarının mövcudluğu”na dair, “Sahibkarlara düşən informasiya yükünün müəyyənləşdirilməsi”nə və “Ev təsərrüfatlarının sənaye fəaliyyətinin öyrənilməsi”nə dair seçmə statistika müayinələri üzrə keyfiyyət məruzələri aktuallaşdırılaraq yenidən hazırlanmış və Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsinin “Sənaye” və “Tikinti” bölmələrində yerləşdirilmişdir.<br>“Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı”nın 5.2.4-cü (“Elmtutumlu və yüksək texnoloji məhsulların yeni milli təsnifatının hazırlanması və tətbiqi üçün tədbirlərin görülməsi”) bəndinin icrası istiqamətində müvafiq işlər görülərək elmtutumlu və yüksək texnoloji məhsullarla bağlı təsnifatlara (siyahılara) dair beynəlxalq təcrübələr araşdırılmış, nəticədə əldə edilmiş məlumatlar “Elmtutumlu və yüksək texnoloji məhsulların yeni milli təsnifatının hazırlanması” məqsədilə 18.01.2017-ci il tarixli 07/2-1 nömrəli məktubla Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə təqdim edilmişdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Hüquqi və fiziki şəxslərin yaradılması və ləğvi ilə bağlı Vergilər Nazirliyindən daxil olmuş məlumatlar əsasında statistik vahidlərin Dövlət reyestrinin aktuallaşdırılması və onun statistik işlər üçün aktual vəziyyətdə saxlanması mütəmadi olaraq davam etdirilmiş, 03 aprel – 31 may tarixlərində reyestrin aktuallaşdırılması həyata keçirilmiş, aktuallaşdırılmış reyestr əsasında subreyestrlər yaradılmışdır.<br>Statistik məlumatların toplanmasında, emalında və yayılmasında istifadə olunan informasiya texnologiyalarının tətbiqi imkanlarının genişləndirilməsi, statistik informasiya sisteminin inkişaf etdirilməsi üçün bir sıra işlər görülmüş, hesabat məlumatlarının respondentlər tərəfindən elektron formada, yerli statistika orqanlarına gəlmədən təqdim edilməsi üçün zəruri tədbirlər həyata keçirilmiş, rəsmi statistika hesabatlarının onlayn rejimdə elektron formada qəbulunun davamlılığı təmin edilmişdir. Dövlət Statistika Komitəsinin yeni veb-saytı istifadəyə verilmişdir. |
| 4.2.3. Yaxşı idarəetmə və effektiv stimullar vasitəsilə birbaşa xarici investisiya strategiyasının həyata keçirilməsi | İqtisadiyyat Nazirliyi | Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi | 2017-2018 | ☐ icra edilmişdir<br>☐ icrasına başlanılmışdır<br>☒ icrasına başlanılmamışdır | "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının "4.2.3. Yaxşı idarəetmə və effektiv stimullar vasitəsilə birbaşa xarici investisiya strategiyasının həyata keçirilməsi" bəndinin icrası məqsədilə Azərbaycan Respublikası iqtisadiyyat nazirinin F-60 nömrəli əmri ilə cari ilin 21 aprel tarixində işçi qrup yaradılmışdır. AZPROMO-nun təşkilatçılığı ilə cari ilin 19 iyun tarixində işçi qrupun ilk iclası keçirilmişdir. İclasda yaxşı idarəetmə və effektiv stimullar vasitəsilə birbaşa xarici investisiya strategiyası ilə bağlı ümumi məsələlər müzakirə edilmiş və işçi qrupun üzvləri tərəfindən hazırlanacaq təkliflərin keçiriləcək növbəti iclasda müzakirə ediləcəyi bildirilmişdir. Sözügedən təkliflər əsasında Tədbirlər Planı hazırlanacaqdır.<br>Eyni zamanda, ötən dövrlərdə hazırlanmış "Xarici investisiyalar və qeyri-neft ixracının təşviqi strategiyası" layihəsinin təkmilləşdirilməsi istiqamətində iş aparılmışdır və cari ildə layihənin təsdiq məqsədilə aidiyyəti üzrə təqdim edilməsi planlaşdırılır. Strategiya təsdiq olunduqdan sonra onun icrası istiqamətində əməli addımlar atılacaqdır.<br>Əlavə olaraq, birbaşa xarici investisiya üçün uyğun investorların cəlb olunması məqsədilə investisiya layihələri barədə məlumatlar toplanılmış, kənd təsərrüfatı, qida emalı, |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | turizm, informasiya-kommunikasiya texnologiyaları, ağır sənaye və maşınqayırma, kimya sənayesi, bərpa olunan enerji, tikinti, əczaçılıq kimi sahələri əhatə edən investisiya layihələri kataloqu hazırlanmışdır.<br>Cari ilin ilk 6 ayı ərzində həmin investisiya layihələri, habelə ölkəmizdə yaradılmış və yaradılmaqda olan xüsusi iqtisadi zonalar, sənaye parkları və məhəllələri, investisiya təşviqi mexanizmi, təqdim olunan vergi və gömrük güzəştləri, xarici investisiyaların müdafiəsi üzrə qanunvericilik və prosedurlar 95-i Azərbaycanda, 15-i xaricdə olmaqla keçirilmiş 110 tədbir və ikitərəfli görüş çərçivəsində təşviq edilmişdir. |